# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar"**




4

SƏS
№ 104 (7272)
18 iyun 2025-ci il.
Qiymәti 60 qәpik

# Azərbaycan etibarlı və güclü tərəfdaşdır!



2

**Prezident İlham Əliyev Şimali Makedoniya Assambleyasının sədrini, Koreya Respublikasının və Fələstinin ölkəmizdə yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib**

# Ermənistanda QORXU - "qida təhlükəsizliyi" ölüm saçır...



3

## Sosial dövlət yolunda ortaya qoyulmuş siyasi iradə



15

## Ümid yerimiz, şəfa diləyimiz...



11

## Avropanın media casuslarının məhkəməsində yeni faktlar üzə çıxdı




14

## İtaliyada məktəblilərin mobil telefonlardan istifadəsi qadağan edildi!



16

## Ərəblər bu futbolçuya illik 50 milyon avro maaş təklif edirlər!



16

# Azərbaycan etibarlı və güclü tərəfdaşdır!

## Prezident İlham Əliyev Şimali Makedoniya Assambleyasının sədrini, Koreya Respublikasının və Fələstinin ölkəmizdə yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib

***Prezident İlham Əliyev iyunun 17-də Şimali Makedoniya Respublikası Assambleyasının sədri Afrim Qaşini qəbul edib. Söhbət zamanı Azərbaycanla Şimali Makedoniya arasında münasibətlərin inkişafından məmnunluq bildirildi, əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulandı. Əlaqələrimizin möhkəmlənməsində müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunuldu, bu xüsusda Şimali Makedoniya Prezidentinin ölkəmizə rəsmi səfəri və keçirilən səmərəli müzakirələr qeyd olundu.***

Qonaq vurğuladı ki, Şimali Makedoniya Azərbaycanı dost ölkə kimi qəbul edir. Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə əlaqələrimizin perspektivlərinə dair müzakirələr aparıldı, Azərbaycan və Şimali Makedoniyanın qanunverici orqanları arasında əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu.

Prezident İlham Əliyev iyunun 15-də Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kımqu Kanqın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında münasibətlərin uğurlu inkişafına toxunaraq, siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu vurğuladı, mütəmadi əsasda siyasi məsləhətləşmələrin və dialoqun aparıldığını qeyd etdi. Prezident İlham Əliyev siyasi və iqtisadi-ticari əlaqələrin daha da inkişafı üçün geniş imkanların olduğunu dedi, bu xüsusda ölkəmizin sənayeləşmə, həmçinin









Azərbaycanın regionlarının inkişafı proqramları çərçivəsində əməkdaşlıq məsələlərinə toxundu.

Kımqu Kanq Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə edərək, 15 İyun - Milli Qurtuluş Günündə Prezident İlham Əliyev tərəfindən qəbul edilməsinin onun üçün böyük şərəf olduğunu dedi. Səfir Koreya Respublikasının ozamankı Prezidenti Ro Mu Hyunun ölkəmizə rəsmi səfərini, həmçinin Prezident İlham Əliyevin Koreya Respublikasına dövlət səfərini xatırladı və bu səfərlərin əlaqələrimizin inkişafına ciddi təkan verdiyini vurğuladı.

Görüşdə ölkələrimiz arasında yüksək texnologiyalar, rəqəmsal transformasiya, elm, təhsil, o cümlədən peşə təhsili, tibb və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi. Səfir Ələt Azad İqtisadi Zonasının Koreya Respublikasının biznes dairələri üçün maraqlı olduğunu dedi.

Söhbət zamanı Azərbaycanın siyasəti nəticəsində Cənubi Qafqaz regionunda sülh və sabitliyin təmin edildiyi diqqətə çatdırıldı, bu xüsusda Koreya yarımadasında da davamlı sülhün təmin olunacağına ümidvarlıq ifadə edildi.

Prezident İlham Əliyev iyunun 15-də Fələstin Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Əhməd



Metaninin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısı xalqlarımızı dostluq və qardaşlıq əlaqələrinin birləşdirdiyini deyərək, səfirin ölkəmizdə fəaliyyəti dövründə bunun şahidi olacağına əminliyini bildirdi, xalqlarımız arasında münasibətlərin dövlətlərarası əlaqələr üçün də önəmli amil olduğunu vurğuladı. Əməkdaşlığın genişləndirilməsi üçün bundan sonra da birgə səylərin göstəriləcəyini deyən Azərbaycan Prezidenti bu xüsusda yüksəksəviyyəli müxtəlif qarşılıqlı səfərlərin önəminə toxundu. Dövlətimizin başçısı ikitərəfli siyasi əlaqələrimizi qeyd edərək, ölkələrimiz arasında qarşılıqlı dəstəyi və həmrəyliyi vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın Fələstin xalqının haqlı tələbini, İsrail-Fələstin münaqişəsinin "iki dövlət prinsipi" və BMT-nin müvafiq qərarları əsasında həllini, eyni zamanda, BMT Baş Assambleyasında Fələstin məsələsi ilə əlaqədar keçirilən səsvermələrdə Fələstinin haqlı mövqeyini həmişə dəstəklədiyini bir daha bildirdi. Ölkəmizin Fələstinə göstərdiyi humanitar yardımı xatırladan Azərbaycan Prezidenti bunun gələcəkdə də davam edəcəyini dedi.

Prezident İlham Əliyev Fələstinin ölkəmizdəki səfirliyinin uzun müddətdir fəaliyyət göstərməsini məmnunluqla qeyd edərək, bunun üçün Azərbaycan dövlətinin verdiyi dəstəyə toxundu.

Dövlətimizin başçısı Azərbaycanın daim İslam həmrəyliyinin gücləndirilməsinə çalışdığını dedi və bunun İslam Əməkdaşlıq Təşkilatı, onun rəhbər orqanları tərəfindən həmişə yüksək qiymətləndirildiyini vurğuladı. Bu təşkilatın Zirvə görüşünün gələn il Azərbaycanda təşkil ediləcəyini bildirən dövlətimizin başçısı belə mötəbər tədbirin keçirilməsi üçün ölkəmizin seçilməsini bütün müsəlman aləmində bizə olan xoş münasibət kimi qiymətləndirdi və Fələstinin də bu toplantıda yüksək səviyyədə təmsil olunacağına ümidvarlığını ifadə etdi.

Əhməd Metani Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Mahmud Abbasa çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Fələstin Prezidentinin ölkəmizə rəsmi səfərini, həmçinin onunla beynəlxalq tədbirlər zamanı görüşlərini məmnunluqla xatırladı.

Səfir dövlətimizin başçısının 15 İyun - Milli Qurtuluş Günündə onu qəbul etməsindən böyük şərəf hissi keçirdiyini bildirdi. O, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi ilə ölkəmizin çətin vəziyyətdən çıxdığını vurğuladı.

"Biz Azərbaycan üçün hər zaman tərəqqi, həmçinin daha yüksək nailiyyətlər və əmin-amanlıq arzu edirik", - deyən səfir Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasəti və rəhbərliyi nəticəsində ölkəmizin regionda və dünya səviyyəsində çox mühüm bir dövlətə çevrildiyini qeyd etdi.

Söhbət zamanı siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlıq və dəstəkdən məmnunluq ifadə olundu.

# Ermənistanda QORXU - "qida təhlükəsizliyi" ölüm saçır...

Xəstəliklərin yayılması, ixrac məhsullarında karantin, rəsmi nəzarət və nəzarət strukturlarında korrupsiya qalmaqalları kimi siqnallar Ermənistanın aqro-ərzaq sektorunun hansı acınacaqlı durumda olduğunu göstərir. Həmin ölkənin daxilində qida təhlükəsizliyi ilə bağlı nəzarət sisteminin ümumiyyətlə işlək olub-olmaması məsələsi xüsusilə hayların özlərini də narahat edir. Hətta erməni ekspertlər özləri də hesab edirlər ki, Ermənistanda sanitariya nəzarəti çox vaxt yalnız kağız üzərində mövcud olub. Hesab edirlər ki, baytarlıq və fitosanitar sistemlərində baş verənlər məhz həmin işğalçı ölkədə əhalinin sağlamlığını və xarici bazarda nüfuzunu təmin etmək üçün nəzərdə tutulmuş qurumların deqradasiyası səbəbindəndir. Bir sözlə, qida təhlükəsizliyi fonunda hərəkətsizlik xronikası etiraf edilir.



### De-yure mövcud olan, amma de-fakto mövcud olmayan sanitar nəzarəti

Ermənistanda yerli ərzaq istehsalına, xüsusən də kiçik və orta fermerlərə nəzarət demək olar ki, yox dərəcəsindədir. Xüsusilə sanitar və fitosanitar nəzarətdən söhbət gedəndə effektivlikdən danışmaq belə mümkün deyil. Kiçik və orta fermerlərə gəldikdə, bu, mahiyyət etibarı ilə ümumiyyətlə, yoxdur. Guya ki, hansısa mexanizm var, amma həmin mexanizm yox kimi bir şeydir. Beləki, məsələn, de-yure, nəzarət var, pozuntular aşkar edilərsə, təftiş qurumları gəlib cərimə tətbiq edə bilər. Məsələn, mal-qara və ya ev quşları tələf olana qədər, yaxud fermerlər özləri şikayət etməyə başlayana qədər belə nəzarət haqqında söhbət belə gedə bilməz, çünki yoxdur. Bunun isə nəticələrinin necə olacağı bəllidir. Yəqin ki, çox acınacaqlı bir durumla qarşılaşacaqlarını haylar özləri hamıdan yaxşı bilirlər. Hər halda, bu qədər hay-haray salan hayların niyə narahat olduqlarını başa düşmək çətin deyil

### Kağız üzərində nəzarət və ya real nəzarət əvəzinə "görüntü"

Ermənistanın bir sıra rayonlarda laboratoriya bazasının köhnəldiyini, bütün filialların lazımi avadanlıqla təchiz olunmadığını nəzərə alsaq, bu, yoxlamaların hansı səviyyədə aparıldığını söyləmək çətinlik törətmir. Əgər laboratoriya nəzarətindən danışırıqsa, məsələn, fitosanitar nəzarəti müzakirə mövzusu sayılırsa, demək olar ki, faktiki olaraq bu nəzarət həyata keçirilmir. Formal olaraq zərərvericilərin monitorinqi aparılır ki, bu da nəzəri olaraq təzahür edir. Lakin erməni mediasının da etiraf etdiyinə görə, mövcud məlumatlara əsasən, belə monitorinq heç aparılmır.

### Heyvan mənşəli məhsullara ümumiyyətlə, nəzarət həyata keçirilmir

Bəli, heyvanların brusellyoz xəstəliyinə tutulması ilə bağlı guya ki, planlı tədbirlər həyata keçirilir. Guya ki, onların bəziləri peyvənd olunurlar. Amma ümumilikdə bu sahədə ciddi uyğunsuzluq var. Ümumiyyətlə, heyvanların sağlamlığı və qida təhlükəsizliyi sahəsində vahid və yoxlanılmış siyasət qətiyyən yoxdur. Normativ bazaya gəlincə, son illər beynəlxalq birlik adlanan qurumun köməyi olmadan da müxtəlif strateji sənədlər hazırlanıb ki, indiki hökumət guya gözə soxmaq üçün onları təmtəraqla öz xarici tərəfdaşlarına təqdim edir. Lakin, bir qayda olaraq, onlar praktikada həyata keçirilmir axı. Bu sənədlər daha çox, bir növ yalnız beynəlxalq proqramlara uyğun olaraq hazırlanır. Ərzaq məhsullarının keyfiyyətinə, istehsalına və təhlükəsizliyinə, xüsusən də təsərrüfat səviyyəsində faktiki olaraq real nəzarət yoxdur.

### Qida təhlükəsizliyi sistemi qətiyyən işləmir

Hazırda Ermənistanın özünün daxili bazarına daxil olan məhsulların təhlükəsizliyini təmin etmək üçün hansısa mexanizmlər mövcuddurmu? Əgər mövcuddursa belə, onlar beynəlxalq standartlara nə dərəcədə uyğundurlar? Tutaq ki, mövcud mexanizmlərdən danışırıqsa, deməli, onları tam hüquqlu adlandırmaq olduqca çətindir. Söhbət sərhəddə fəaliyyət göstərən və idxal olunan məhsulların sanitar və fitosanitar nəzarətinə formal şəkildə də olsa, cavabdeh olan səlahiyyətli orqan və onun ixtisaslaşmış bölmələrindən gedir. Sistem həmçinin fitosanitariya, baytarlıq və qida təhlükəsizliyinə cavabdeh olan bütün təftiş strukturlarını da əhatə edir. Bununla belə, erməni mediasının da etiraf etdiyi mövcud məlumatlara əsasən, qida təhlükəsizliyinə cavabdeh olan bütün təftiş strukturları, yumşaq desək, bu gün əksər dövlət qurumları kimi məhz formal və lazımi səmərəlilik olmadan fəaliyyət göstərirlər. Mahiyyət etibarı ilə həmin strukturlar, sadəcə olaraq, qida təhlükəsizliyinə dövlət nəzarətinin həyata keçirilməsinə görə maaş alan dövlət qurumlarıdırlar. Lakin reallıq bundan ibarətdir ki, hökumət daxili bazara daxil olan ərzaq məhsullarının təhlükəsizliyinə real nəzarəti qətiyyən həyata keçirmir və sadalananlar qida təhlükəsizliyi sisteminin ümumiyyətlə, işləmədiyini təsdiqləyir.

### Ermənistana idxal olunanlar müəyyən edilmiş keyfiyyət və təhlükəsizlik standartlarına qətiyyən cavab vermirlər

Sərhəddə, bir qayda olaraq, yalnız məhsul sertifikatları yoxlanılır. Belə sertifikatlar altında dəqiq nə idxal olunduğunu haylar heç təsəvvür də edə bilməzlər. Bir çox ölkələrdə hətta sertifikatla belə daxil olan şübhəli məhsullar əlavə olaraq laboratoriyada bir daha yoxlanılır. Amma bunu Ermənistan haqqında qətiyyən söyləmək olmaz. Ermənistanda olan bugünkü hansısa dırnaqarası səlahiyyətli orqanın, məsələn, Avropadan və ya Amerikadan gələn məhsullara şübhə belə etmək üçün kifayət qədər cəsarəti də çatmır.

Bəzən, məsələn, ət məhsulları ilə bağlı erməni mətbuatında ayrı-ayrı partiyaların laboratoriya müayinəsindən keçirildiyi və idxalına icazə verilmədiyi barədə məlumatlar yer alır. Amma bu, dənizdə bir damladır. Bu cür hallar daha çox istisnadır və bir qayda olaraq, "qərəzlə" yoxlamanın nəticəsidir. Əgər Ermənistana idxal olunan bütün ərzaq məhsulları həqiqətən qərəzsiz və hərtərəfli yoxlanılsaydı, əminik ki, onların 50 faizindən çoxu utilizasiyaya məruz qala bilərdi. Çünki haylar da yaxşı bilirlər ki, ölkələrinə idxal olunanalar müəyyən edilmiş keyfiyyət və təhlükəsizlik standartlarına qətiyyən cavab vermirlər. Məhz elə hayların hay-küyləri də buna görədir.

### Epidemiyaların ört-basdır edilməsində Ermənistan hökumətinin rolu və marağı

Bütün ölkə üzrə, xüsusən də ucqar rayonlarda, əyalətlərdə və kənd yerlərində ərzaq məhsullarının keyfiyyətinə sistemli şəkildə nəzarət etmək üçün Ermənistanda kifayət qədər kadr potensialı, texniki və maliyyə resursları varmı? Düşünmürük ki, Ermənistanın, müflis bir ölkənin, rəzil durumda olan bir ölkənin kifayət qədər resursları var. Nə kadr, nə texniki, nə də maliyyə resursundan söhbət belə gedə bilməz. Əslində, belə resurslar Ermənistanda heç vaxt olmayıb və çox güman ki, yaxın gələcəkdə də olmayacaq. Bu gün haqqında qeyd olunanlarla məşğul olunmadığını görürük. Görürük ki, Ermənistan hökuməti heyvan xəstəliklərinin, bitki xəstəliklərinin, zərərvericilərin yayılmasının və digər təhlükələrin sistemli şəkildə gizlədilməsi ilə məşğul olur. Bütün bunlar əlbəttə ki, "səs-küyün", yəni narazılıqların qarşısını almaq üçün edilir. Amma başa düşülmür ki, "gizlədilmə" sayəsində ortaya çıxa bilən epidemiyalar daha dəhşətli sonluq vəd edir. Quduzluqla bağlı da vəziyyət eyni şəkildə qorxuludur haylar üçün. Səlahiyyətli orqanlar erməni ictimaiyyətini dərhal məlumatlandırmaq məcburiyyətində olduqları halda, problemi mümkün qədər tez "susdurmağa", örtbasdır etməyə çalışırlar. Haylara məxsus mətbuat səhifələrində yayımlanan məlumatlara görə, təkcə son 10 gündə Ermənistan Ümumdünya Heyvan Sağlamlığı Təşkilatına quduzluq halları ilə bağlı üç bildiriş göndərib. Amma bununla belə, yerli səviyyədə bu hallarla bağlı ümumiyyətlə, ictimaiyyətə bir dənə də məlumat verilmir. Digər heyvan xəstəliklərinə gəlincə, məsələn, brusellyoz, dabaq, Nyukasl xəstəliyi və başqaları da az deyil Ermənistanda, lakin onların aşkar edilməsi və onlara qarşı mübarizə yox dərəcəsindədir. Təsadüfi deyil ki, ümumi mənzərə məhz hayların qarayara və digər təhlükəli infeksiyalara yoluxma hallarını ilə təsdiqlənir. Buna baxmayaraq, qida təhlükəsizliyinə, epidemiyalara, digər təhlükələrə baxmayaraq, hələ də hərəkətsizlik xronikası Ermənistan üçün xarakterikdir...

*İnam Hacıyev*

## "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusunda Şuşada keçirilən beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

Müasir dövrdə dünyada olduqca mürəkkəb geosiyasi hadisələr baş verir. Milli, regional və qlobal təhlükəsizliyə qarşı çoxsaylı təhdidlərin yaranması və ölkələrin müxtəlif siyasi, hərbi, iqtisadi, mədəni, humanitar, ekoloji çağırışlarla üzləşməsi fonunda beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzlərinin meydana çıxması və yeni dünya nizamına keçid prosesi müşahidə olunmaqdadır. Belə bir şəraitdə dövlət maraqlarının, ölkələrin müstəqilliyinin və suverenliyinin qorunması, sülh, sabitlik, əməkdaşlıq və çoxtərəfli inkişaf naminə səylərin birləşdirilməsi müstəsna əhəmiyyətə malikdir.

BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı birləşmələrinin tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinə baxmayaraq, 30 ilə yaxın ərazisinin 20 faizi işğal altında olmuş Azərbaycan ikili standartlarla, qərəzli və ədalətsiz münasibətlə üzləşmişdi. 44 günlük Vətən müharibəsi və 1 günlük antiterror əməliyyatı nəticəsində ölkəmiz ərazi bütövlüyünü və suverenliyini öz gücü ilə tam bərpa etdi. Beləliklə, müasir Azərbaycan dövlətini dərin sosial, iqtisadi və siyasi böhrandan qurtaran dahi şəxsiyyət, milli dövlətçilik ideologiyasının yaradıcısı Ümummilli Lider Heydər Əliyevin arzuladığı qalib və qüdrətli Azərbaycan dövləti formalaşdı.

Ədalətli dünya nizamının tərəfdarı olduğunu hər zaman əməli fəaliyyəti ilə nümayiş etdirən Azərbaycan nəinki yerləşdiyi Cənubi Qafqaz regionunun, həm də bütövlükdə Avrasiyanın dialoq və əməkdaşlıq məkanına çevrilməsinin tərəfdarı kimi çıxış edir. Dost və tərəfdaş ölkələrlə birlikdə həyata keçirdiyimiz layihələr regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verir, həm Şərq ilə Qərb, həm də Şimal ilə Cənub arasında konstruktiv və perspektivli işbirliyinə əlverişli zəmin yaradır. Dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmiş Azərbaycan Bandunq Prinsiplərinə daim sadiq qalaraq ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə müdafiə etmişdir.

Bu gün ədalətli dünya naminə yeni geosiyasi nizamın formalaşması dövlətlərin siyasi məsuliyyət prinsipinə əsaslanan ardıcıl və məqsədyönlü fəaliyyətindən asılıdır. Ölkələr məhz qarşılıqlı hörmət və etimada, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, müasir çağırışlara cavab verən səmərəli işbirliyi həyata keçirməklə bu prosesə layiqli töhfə verə bilərlər. 2025-ci il "Konstitusiya və Suverenlik İli" kimi respublikamızda təntənəli şəkildə qeyd olunur. Azərbaycan milli maraqları rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini cəsarətlə davam etdirir, öz konstitusiyasına, suveren hüquqlarına əsaslanaraq sülh, əməkdaşlıq və davamlı inkişaf naminə yeni dünya nizamının fəal iştirakçısı olmağa çalışır. Azərbaycanın Milli Qurtuluş Günündə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə baş tutan bu mötəbər tədbirin dünyada cərəyan edən aktual məsələlərin müzakirəsi baxımından məhsuldar olacağına və ölkələrimiz arasında çoxşaxəli münasibətlərin inkişafına təkan verəcəyinə əminliyimi ifadə edərək, konfransın işinə uğurlar arzulayıram.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 iyun 2025-ci il***

# “Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar”

## Şuşada Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib

***İyunun 15-də - Milli Qurtuluş Günündə Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Şuşa şəhərində ”Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar” mövzusunda beynəlxalq konfrans keçirilib. Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, tədbirdə iştirak edən dost ölkələrin müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***




Tədbirdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin konfrans iştirakçılarına müraciətini səsləndirib.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov çıxış edərək qonaqları Qarabağın tacı, Azərbaycanın mədəniyyət paytaxtı qədim Şuşa şəhərində salamlamaqdan məmnunluğunu ifadə edib. O bildirib ki, Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixinin ən parlaq səhifələrindən biridir.






Xüsusi nümayəndə azad olunmuş ərazilərdə görülən işlərdən bəhs edərək mənfur qonşularımız tərəfindən ata-baba yurdlarından qovulmuş insanların öz doğma evlərinə Böyük Qayıdışının davam etdiyini söyləyib. A.Kərimov qeyd edib ki, bugünədək Şuşada 20-dən çox tarixi abidə, o cümlədən 5 məscid bərpa olunub: ”Yeni məktəbimizdə 200-ə yaxın şagird təhsil alır. Müasir tələblərə cavab verən müalicə və sağlamlıq mərkəzi açılıb. Şəhərimizdə turizmin inkişafı baxımından böyük əhəmiyyətə malik olan yeni otellər, muzeylər, istirahət məkanları açılmaqdadır. Təkcə bu ayın ilk 10 günündə şəhərimizi ziyarət edənlərin sayı 25 mini keçib. Ən önəmli layihələrimiz isə, sözsüz ki, şuşalılar üçün yeni yaşayış evlərinin tikilməsidir. Artıq 1409 nəfər keçmiş məcburi köçkün şuşalı 23 binadan ibarət ilk yaşayış kompleksində daimi məskunlaşıb. Növbəti aylarda isə şəhərimizdə ümumilikdə 45 ədəd çoxmənzilli binadan ibarət daha üç yeni yaşayış kompleksinin tikintisinə başlanılacaq”.

Aydın Kərimov deyib ki, son illərdə Şuşa şəhəri bir çox beynəlxalq tədbirlərə, o cümlədən yüksək səviyyəli zirvə görüşlərinə ev sahibliyi edib: ”Bu, bizim üçün qürürvericidir. Yeni Azərbaycan Partiyasının təşəbbüsü və təşkilatçılığı ilə artıq 4-cü ildir ki, Şuşa şəhərində mühüm beynəlxalq konfranslar keçirilir”. Sonra Yeni Azərbaycan Partiyasının media qurumu olan Yeni TV-nin hazırladığı videoçarx nümayiş olunub. Daha sonra beynəlxalq konfrans sessiyalarla öz işini davam etdirib.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Həsənin moderatorluğu ilə keçirilən plenar sessiyada çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov konfrans iştirakçılarını ölkəmizdə - Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin qətiyyətli siyasəti, xalqımızın sarsılmaz həmrəyliyi, Azərbaycan Ordusunun qüdrəti sayəsində 30 illik işğaldan azad edilmiş Şuşa şəhərində salamlamaqdan məmnunluğunu ifadə edib, dəvəti qəbul edərək tədbirə qatıldıqları üçün təşəkkürünü bildirib və konfransın işinə uğurlar arzulayıb.

”Bu gün biz Azərbaycan xalqı və dövləti üçün olduqca əlamətdar bir tarixdə bir araya gəlmişik. 32 il əvvəl - 1993-cü il iyunun 15-də son dərəcə mürəkkəb bir şəraitdə - Azərbaycan Respublikası yenicə bərpa etdiyi dövlət müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya olarkən müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilmiş və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi yazılmışdır”, - deyən Tahir Budaqov əlavə edib ki, həmin ilin oktyabrın 3-də xalqın böyük etimadı əsasında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev xilaskarlıq və quruculuq missiyasını həyata keçirməklə Azərbaycanda sabitlik və inkişafı təmin etmiş, təcrid vəziyyətində olan ölkəmizi beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevirmiş və bugünkü möhtəşəm qələbələrin - tərəqqi və Zəfər yolunun əsaslarını formalaşdırmışdır.




YAP Sədrinin müavini 2021-ci ilin məhz 15 iyun tarixində ”Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin imzalandığını, bu gün həmin əlamətdar hadisənin dördüncü ildönümünün də qeyd edildiyini vurğulayıb: ”Bu, təkcə iki dost və qardaş ölkə arasında əlaqələrin strateji tərəfdaşlıqdan müttəfiqlik zirvəsinə yüksəlməsi ilə səciyyəvi deyil, həmçinin hazırkı təhdidlər və çağırışlar fonunda yeni dünya nizamının formalaşmaqda olduğu bir tarixi mərhələdə Cənubi Qafqaz regionunda və daha geniş coğrafiyada davamlı sabitlik, etibarlı təhlükəsizlik və çoxşaxəli əməkdaşlıq üçün əlverişli zəminin yaradılması istiqamətində atılmış əhəmiyyətli bir addımdır”.

Tahir Budaqov bildirib ki, müstəqil Azərbaycanın ilk milli Konstitusiyasının qəbul edilməsinin 30-cu və Vətən müharibəsində əldə olunmuş qələbənin 5-ci ildönümünü qeyd etdiyimiz 2025-ci il Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölkəmizdə ”Konstitusiya və Suverenlik İli” elan edilmiş və təsdiq olunmuş Tədbirlər Planına əsasən il ərzində çoxsaylı yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur: ”Azərbaycanın aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası tərəfindən də bu münasibətlə silsilə tədbirlər keçirilməkdədir. ”Konstitusiya və Suverenlik İli” çərçivəsində Milli Qurtuluş Günündə keçirilən bugünkü konfransımız olduqca aktual bir məsələyə həsr olunmuşdur. Hər birimizə məlumdur ki, müasir dövrdə beynəlxalq münasibətlər sistemində olduqca gərgin proseslər və ciddi geostrateji dəyişikliklər baş verməkdədir. Qlobal kataklizmlərin meydana gətirdiyi təhdid və çağırışlar fonunda yeni dünya nizamına transformasiya məsələsi beynəlxalq müstəvidə ciddi müzakirə predmetinə çevrilmişdir”.

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, Azərbaycan yeni geosiyasi nizamın tərəfdarı kimi beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradan hallara qarşı qətiyyətli mübarizə apararaq müstəqil və konstruktiv siyasət həyata keçirməklə qlobal miqyasda dialoq və əməkdaşlığı təşviq edir: ”2020-ci ildə 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə bir günlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edən Azərbaycan regionda ədalətli geosiyasi nizamın - yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşması, sülh naminə etimad quruculuğunun həyata keçirilməsi istiqamətində fəal siyasət yürüdür. Ölkəmizin strateji kursu beynəlxalq hüquq normalarına riayət olunması, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsi, daxili işlərinə müdaxilə olunmaması və qarşılıqlı surətdə milli maraqların nəzərə alınması kimi prinsiplərə əsaslanır. BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalmış qətnamələrinin icrasını öz gücü hesabına təmin edərək çoxillik münaqişəyə son qoymaqla müstəsna beynəlxalq siyasi-hüquqi presedent yaradan Azərbaycan bütün dünyada sülhün, ədalətin, bərabərliyin müdafiəçisi kimi mövqeyini aydın şəkildə ortaya qoyur”.

Ardı Səh. 5

# "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar"

## Şuşada Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib

Əvvəli Səh. 4

Tahir Budaqov söyləyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik xarici siyasət kursu yalnız Cənubi Qafqaz bölgəsində deyil, daha geniş coğrafiyada qarşılıqlı maraqlara uyğun tərəfdaşlıq əlaqələrinin inkişafına və ortaq strateji hədəflərin reallaşmasına xidmət edir: "Bu, Azərbaycanın dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli formatda münasibətlərinin inkişafını təmin etməklə yanaşı, beynəlxalq təşkilatlarla əlaqələrin möhkəmlənməsini də şərtləndirir. Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə əldə etdiyi nailiyyətlər, BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər təsisatlarda səmərəli fəaliyyəti, 2024-cü ilin noyabr ayında COP29-a uğurla ev sahibliyi etməsi və bunun nəticəsi olaraq iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə dair qlobal əhəmiyyətli qərarların qəbulu ölkəmizin beynəlxalq müstəvidə ədalətli və etibarlı tərəfdaş kimi önəmini qabarıq şəkildə bir daha təsdiq etmişdir".

YAP Sədrinin müavini qeyd edib ki, beynəlxalq münasibətlər



mə və haqsız rəqabət kimi problemlərin əhəmiyyətli dərəcədə həllinə nail olmaqla bəşəriyyətin sağlam və xoşbəxt gələcəyi üçün etibarlı zəmin formalaşdıra bilərik. Ona görə də hakim siyasi partiyalar arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi son dərəcə önəmlidir. Konfransımızın panel sessiyalarından biri "Ədalət naminə həmrəylik: siyasi partiyaların rolu" mövzusuna həsr olunacaq və bu məsələlər ətrafında fikir mübadiləsi aparılacaqdır. Amma qısaca qeyd etmək istəyirəm ki, yeni reallıqlardan irəli gələn çağırış və hədəfləri əsas götürərək beynəlxalq əlaqələrini uğurla davam etdirən Yeni Azərbaycan Partiyası dost ölkələrin aparıcı siyasi partiyaları ilə münasibətlərin inkişafına xüsusi önəm verir. Dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin uzaqgörən xarici siyasət kursu əsasında məqsədyönlü partiya diplomatiyasının həyata keçirilməsi - partiyalar arasında intensiv təmasların müvəffəqiyyətlə davam etdirilməsi, səmərəli fikir və təcrübə mübadiləsinin aparılması ölkələrarası münasibətlərin möhkəmləndirilməsi baxımından olduqca əhəmiyyətlidir. Partiyalarımız arasındakı sıx təmaslar təkcə ikitərəfli əlaqələrin inkişafını əhatə etmir, həm də yeni dünya nizamına keçid şəraitində çoxşaxəli əməkdaşlığa hədəflənmişdir. Bugünkü konfransımızın da beynəlxalq münasibətlərin bərabərlik, açıqlıq və əməkdaşlıq prinsipləri əsasında qurulması yönündə təşəbbüslərə töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inamımı ifadə edərək hər birinizə fəaliyyətinizdə uğurlar arzulayır və diqqətinizə görə təşəkkürümü bildirirəm".

Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Efkan Ala çıxışında Azərbaycan ilə Türkiyə arasında münasibətlərin dostluğa, qardaşlığa və strateji müttəfiqliyə əsaslandığını qeyd edib. O, 2021-ci ilin iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsini iki qardaş ölkənin münasibətlərində tarixi bir mərhələ adlandırıb. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanan Bəyannamənin dördüncü ildönümünün sevincini və qürurunu yaşadığını bildirən E.Ala Şuşanın xüsusi bir rəmzi məna - böyük mənəvi önəm daşıdığını deyib: "Ümummilli Lider Heydər Əliyevin əziz bir şəhər, əziz bir torpaq, əziz bir qala və əziz bir abidə adlandırdığı Şuşa malik olduğu dini, tarixi və mədəni abidələri ilə yanaşı, yetirdiyi görkəmli sənət və fikir adamları ilə də Türk dünyasının qəlbində taxt qurub. Bu gün burada bir tarixin, bir mədəniyyətin və bir xalqın ruhunda görüşürük. Mədəni irsi, sənəti, musiqisi, memarlığı və ruhu ilə Şuşa bir mədəniyyətin daşıyıcısıdır. Bu torpaqların azad olunması yalnız hərbi qələbə deyil, eyni zamanda, hüququn, ədalətin və beynəlxalq legitimliyin təcəssümüdür. Böyük Zəfər uğrunda canlarını fəda edən bütün şəhidlərimizi rəhmətlə yad edir, əziz xatirələrinə dərin hörmət və ehtiramımı bildirirəm".











sistemində baş verən dəyişiklikləri və yeni dünya nizamının formalaşmasının labüdlüyünü nəzərə alan Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsi - İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatının hər birinə daimi üzv kimi yerin verilməsi təklifini irəli sürmüşdür: "Bununla yanaşı, milli maraqlara hörmət və ədalət prinsiplərinə əsaslanan yeni çoxtərəfli əməkdaşlıq mühitinin yaradılması məqsədilə Azərbaycan Qlobal Cənub ilə Qlobal Şimal arasında dialoq və konstruktiv əməkdaşlıq mühitinin təmin olunmasının tərəfdarı kimi bu prosesdə fəal rol oynamaq niyyətini nümayiş etdirir. Ölkəmiz dayanıqlı sülh, təhlükəsizlik və tərəfdaşlıq naminə hərbi-siyasi təhdidlərin qarşısının alınması, iqtisadi, ekoloji, humanitar və digər sahələrdə təhlükəsizliyin təmin olunması istiqamətində mühüm təşəbbüslərlə çıxış edir. Eyni zamanda, Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı - D8-ə üzv olması, Şanxay Əməkdaşlıq Təşkilatı, BRICS kimi nüfuzlu platformalarda tərəfdaş ölkə kimi işbirliyini diqqət mərkəzində saxlaması, eləcə də neokolonializmin bütün təzahürlərinin aradan qaldırılması istiqamətindəki fəaliyyəti olduqca mühüm əhəmiyyətə malikdir. Bir sözlə, həm yerləşdiyi Cənubi Qafqazın, həm də bütövlükdə Avrasiyanın uzunmüddətli və səmərəli əməkdaşlıq məkanına çevrilməsində maraqlı olduğunu nümayiş etdirən Azərbaycan multilateralizm prinsipinə əsaslanan yeni dünya düzəninə transformasiya prosesinə töhfələrini verməkdədir".

Tahir Budaqov bildirib ki, dünyada fərqli geosiyasi mənzərənin - yeni beynəlxalq nizamın yaranmaqda olduğu hazırkı şəraitdə müştərək hədəflər əsasında qarşılıqlı faydalı fəaliyyətin davam etdirilməsi, ölkələrimiz arasında tərəfdaşlığın gücləndirilməsi müstəsna önəm daşıyır: "Biz yeni reallıqlar fonunda həmrəylik nümayiş etdirərək dünyada bərabərsizlik, təcridet-

E.Ala bildirib ki, Şuşa 30 ilə yaxın bir müddətdə işğal altında qalan zaman ağır faciələrlə üzləşib, işğalçılar Şuşa mədəniyyətini məhv etməyə çalışıblar. "Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu olan Qarabağın azadlığı reallaşdı, Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında torpaqlar işğaldan azad olundu", - deyən AK Parti Sədrinin birinci müavini iki qardaş ölkənin - Türkiyə ilə Azərbaycanın əlaqələndirilmiş xarici siyasət kursunun regional və qlobal təhlükəsizliyə töhfə verdiyini bildirib.

Ardı Səh. 6

# “Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar”

## Şuşada Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib

Əvvəli Səh. 5

Onun sözlərinə görə, Cənubi Qafqazda davamlı sülh və sabitliyin təmin olunması Türkiyənin xarici siyasətində vacib prioritetlərdən biridir. Efkan Ala qeyd edib ki, Azərbaycanın tam suverenliyini bərpa etməsi ilə birlikdə bölgədə davamlı sülh və sabitlik üçün tarixi bir fürsət yaranıb: ”Bir zamanlar Qarabağın inzibati və siyasi mərkəzi kimi tanınan Şuşanın yenidən mühüm beynəlxalq toplantı və konfranslara ev sahibliyi etməsi bölgənin gələcəyinə güclü bir ümid işığı salmaqdadır. 44 günlük Vətən müharibəsində qələbə qazanan Azərbaycan yalnız bir Zəfərin sahibi deyil, eyni zamanda, regionda sülhün və dayanıqlı inkişafın baş memarıdır. Bölgədə qalıcı sülhün təmin olunması isə iqtisadi inkişaf prosesini də sürətləndirəcək”.

Cənubi Qafqazda dayanıqlı sülhün, iqtisadi inteqrasiyanın və qarşılıqlı etimadın formalaşması üçün mühüm zəminin yarandığını bildirən E.Ala qeyd edib ki, regional problemləri məhz bölgə ölkələri həll edə bilərlər. Onun sözlərinə görə, Cənubi Qafqaz ölkələri öz məsələlərini uzaq coğrafiyalardakı güclərin müdaxiləsinə ehtiyac duymadan qonşuları ilə əməkdaşlıq yolu ilə həll etməyə qadirdir və bu iradəyə sahibdir.







AK Parti Sədrinin birinci müavini qeyd edib ki, qlobal sistemin ədalətli bir formaya salınması Türkiyənin xarici siyasətinin də öncəliklərindəndir: ”Hazırda dünyada olduqca çətin bir dövr yaşanır - qlobal idarəetmə sistemi zəifləyib, çoxtərəfli əməkdaşlıq anlayışı öz dəyərini itirib, beynəlxalq münaqişələr daha da dərinləşib, qeyri-müəyyənlik artıb. Beynəlxalq təşkilatlar sülh, təhlükəsizlik və rifah yaratmaq sahəsində effektiv fəaliyyət göstərə bilmir və bu, artıq sistematik problemə çevrilib. Qlobal miqyasda artan gərginliklər regional problemləri daha mürəkkəb hala gətirib. Bunun həlli üçün səfərbər olmaq gərəkdir”.

Türkmənistan Demokratik Partiyasının Sədri Ata Sərdarov çıxışında təmsil etdiyi ölkənin Azərbaycanın siyasi, iqtisadi və mədəni-humanitar sahələrdə sürətli inkişafını, beynəlxalq arenada nüfuzunun və təsirinin artmasını, aktual qlobal məsələlərin həllində fəal rolunu xüsusi maraqla izlədiyini deyib. O, bu marağın, hər şeydən əvvəl, Türkmənistan və Azərbaycan xalqlarının ortaq köklərindən qaynaqlandığını bildirib: ”Biz bir ağacın budaqları kimiyik və bizi birləşdirən, doğmalaşdıran çox sayda amillər mövcuddur. Tariximiz, münasibətlərimiz və taleyimiz qədim Xəzər dənizi ilə də bağlıdır. Ölkələrimiz məhz Xəzər dənizi vasitəsilə ticari-iqtisadi əlaqələrini qurur. Eyni zamanda, Türkmənistan və Azərbaycan ərazilərindən Avropa ilə Asiya arasında ən əlverişli ticarət marşrutları keçir”.




A.Sərdarov bildirib ki, müstəqil Türkmənistan inkişaf yolunda böyük nailiyyətlər əldə edib. ”Türkmənistan dövləti sülhpərvər, qlobal səviyyədə etimada əsaslanan siyasəti təşviq edən ölkə kimi Birləşmiş Millətlər Təşkilatı çərçivəsində nüfuzunu xeyli artırıb. Türkmənistanın daimi neytrallıq statusu BMT-nin 1995, 2015 və 2025-ci illərdə qəbul etdiyi xüsusi qətnamələrlə tanınıb. Həmçinin ölkəmizin təşəbbüsü ilə BMT tərəfindən 12 dekabr ”Beynəlxalq Neytrallıq Günü” elan olunub”, - deyən Türkmənistan Demokratik Partiyasının Sədri onu da vurğulayıb ki, qlobal inkişaf məsələlərində əsas çağırışlar sülhün qorunması və xalqların rifahının təmin edilməsidir. Onun sözlərinə görə, bu sahədə Türkmənistan beynəlxalq qurumlarla, ilk növbədə Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıq çərçivəsində mühüm irəliləyişlərə nail olub: ”Türkmənistan ümumi daxili məhsulun illik 6 faizdən çox artımını təmin edərək böyük milli və beynəlxalq layihələrin icrasında, eləcə də zamanın tələblərinə uyğun sosial sahənin inkişafında uğur qazanan ölkələr sırasındadır. Hazırda Türkmənistanda genişmiqyaslı inkişaf proqramları uğurla icra olunur. Bu proqramların əsasını ”Dövlət insan üçündür!” prinsipi və ”Vətən yalnız xalqla vətəndir! Dövlət yalnız xalqla dövlətdir!” şüarı təşkil edir”.




O, Türkmənistan ilə Azərbaycan arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edərək daha da möhkəmlənəcəyinə əminliyini bildirib.






Çıxış edən Şimali Kipr Türk Cümhuriyyətinin Ulusal Birlik Partiyasının sədri, Baş nazir Ünal Üstel tədbir iştirakçılarını salamlayaraq konfransa ev sahibliyi edən Şuşa şəhərini mübarizə simvolu adlandırıb. O bildirib ki, Şuşa bir millətin yenidən ayağa qalxmasının nümunəsidir: ”Şuşa böyük bir Zəfərin adıdır. Şuşanın Zəfərini bir daha təbrik edirik. Şimali Kipr Türk Cümhuriyyəti olaraq can Azərbaycanı Milli Qurtuluş Günü münasibətilə təbrik edirik. Bildirmək istəyirəm ki, Qarabağ Zəfərində Azərbaycan xalqının yaşadığı o böyük qüruru biz də öz qəlbimizdə hiss etdik. Çünki bu Zəfər bütün Türk dünyasınındır”.

Ünal Üstel vurğulayıb ki, müasir dövrdə Türk dünyası tək ürək-tək biləkdir: ”Bunu bütün dünyaya göstəririk. Biz təkcə bir millətin nümayəndələri deyilik, eyni zamanda, böyük bir sivilizasiyanın da daşıyıcılarıyıq. 2022-ci ildə Şimali Kipr Türk Cümhuriyyəti Türk Dövlətləri Təşkilatına müşahidəçi üzv seçildi. Bu hadisə bizim böyük ailənin önəmli tərkib hissəsi olduğumuzu bir daha nümayiş etdirdi. Bu gün Şuşadan bir daha bəyan edirik ki, Şimali Kipr Türk Cümhuriyyəti Türk dünyasının ayrılmaz bir parçasıdır”.

Ü.Üstel qeyd edib ki, müasir dünyada milli suverenlik anlayışı sərhədləri mühafizə etməklə məhdudlaşmır, paralel olaraq millətin kimliyini, dəyərlərini və iradəsini qorumaqla tamamlanır. ”Türk dövlətləri olaraq biz bunu bacardıq. Biz həm suverenliyimizi, həm də milli kimliyimizi, iradəmizi qoruduq. Şuşada keçirilən konfransın ”Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar” mövzusuna həsr olunması həm nəzəri, həm də praktik baxımdan böyük əhəmiyyət daşıyır. Bu mövzu bizə bir daha göstərir ki, qarşılaşdığımız təhdidlər çoxşaxəlidir və əməkdaşlıq modellərimiz güclü olmalıdır”, - deyə o vurğulayıb.

Türk Dövlətləri Təşkilatı ilə hər sahədə inteqrasiyanı artırmaq istədiklərini deyən Ünal Üstel münasibətlərin inkişafı üçün belə görüşlərin keçirilməsinin əhəmiyyətli olduğunu deyib: ”Buna görə Yeni Azərbaycan Partiyasına xüsusi təşəkkür edirik. Partiyanın tarixi tədbirə ev sahibliyi etməsi onun aydın siyasi baxışının təzahürüdür”.

Plenar sessiyanın sonunda moderator Ramil Həsən müasir qlobal çağırışlar fonunda yeni dünya nizamına keçid məsələsinin kifayət qədər aktual olduğunu qeyd edib. O bildirib ki, dünyada baş verən mürəkkəb proseslər dövlətlərin fəal əməkdaşlığını zəruri edir. R.Həsən siyasi partiyalar arasında intensiv təmasların bu xüsusda mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. O vurğulayıb ki, Şuşada keçirilən beynəlxalq konfrans yeni dünya nizamına transformasiya şəraitində geosiyasi prioritetlər və qlobal çağırışlara dair ətraflı fikir mübadiləsinin aparılması üçün son dərəcə önəmli platformadır.

Ardı Səh. 7

# “Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar”

## Şuşada Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib

Əvvəli Səh. 6

Türkiyənin Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Zafer Sırakayanın moderatorluğu ilə ”Milli suverenlik, regional əməkdaşlıq və qlobal təhlükəsizlik: yeni çağın siyasi paradiqmaları” mövzusunda keçirilən panel sessiyasında çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Əli Əhmədov bildirib ki, Yeni Azərbaycan Partiyasının təşkil etdiyi konfrans son dərəcə əlamətdar bir gündə və məkanda keçirilir. Onun sözlərinə görə, xalqımız Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışının - Milli Qurtuluş Gününün növbəti ildönümünü böyük hörmət və ehtiramla qeyd edir: ”Əgər biz müasir Azərbaycanın həyatının ən başlıca siyasi simvollarının nədən ibarət olduğu haqqında sual versək, iki başlıca amili qeyd edə bilərik. Birincisi Heydər Əliyevin yaratdığı qüdrətli Azərbaycan - müstəqil Azərbaycan dövləti və dövlətçiliyidir. İkincisi isə bu dövlətin Prezident İlham Əliyevin rəhbərliyi altında qazandığı əzəmətli Qələbədir. Bu Qələbənin nəticəsi olaraq bu gün biz Şuşa şəhərində bu gözəl tədbiri keçirə bilirik. Beləliklə, Qurtuluş məfkurəsi yaşayır, Heydər Əliyev siyasəti yaşayır, Heydər Əliyev siyasəti Prezident İlham Əliyevin həyata keçirdiyi doktrinada özünün ətraflı ifadəsini tapır, Azərbaycana yeni uğurlar və qələbələr gətirir. Dünən də belə olub, bu gün də belədir, gələcəkdə də belə olacaq”.





YAP Sədrinin müavini qeyd edib ki, bu gün dünyada ciddi dəyişikliklər baş verir. Onun fikrincə, texnoloji, siyasi və hərbi transformasiyalar dünya tarixinin yeni bir mərhələsinin başladığından xəbər verir: ”Bu yeni mərhələ isə ayrı-ayrı ölkələrə, onların həyata keçirdiyi siyasətə bu və ya digər dərəcədə təsir göstərir. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasətdə bəşəriyyətin üzləşdiyi təhdidlər, çağırışlar nəzərə alınıb və bununla əlaqədar olaraq lazımi tədbirlər görülüb və bundan sonra da görüləcək. Hazırda Azərbaycanın xarici siyasətinin üç əsas istiqamətini vurğulaya bilərik. Birincisi işğal faktının aradan qaldırılmasından sonra sülh gündəliyinin xarici siyasətdə mərkəzi məsələyə çevrilməsidir. İnanıram ki, sülh müqaviləsinin imzalanması yeni bir mərhələnin əsasının qoyulması üçün ciddi vəsilə olacaq. İkinci istiqamət əməkdaşlıq və təhlükəsizlik xəttidir ki, bunun da başlıca hədəfi bütün ölkələrlə, o cümlədən bölgə dövlətləri ilə milli maraqlara uyğun hərtərəfli və etibarlı əməkdaşlığın həyata keçirilməsidir. Ölkəmizin bu istiqamətdə həyata keçirdiyi siyasətin başlıca hədəfi əməkdaşlığın etibarlı zəmin üzərində qurulmasını təmin edə biləcək kommunikasiya strategiyasının reallaşdırılması,




Zəngəzur dəhlizinin açılması ilə əlaqədardır. Üçüncü istiqamət isə bütövlükdə bəşəriyyətin üzləşdiyi təhdidlər və çağırışlara milli immunitetin formalaşdırılması ilə əlaqədardır”, - deyə Əli Əhmədov qeyd edib.

Əli Əhmədov bildirib ki, İkinci Dünya savaşından sonra yaranan beynəlxalq təhlükəsizlik sistemi nəinki ciddi böhran içərisinə düşüb, hətta tamamilə çöküb desək, daha düzgün olar: ”Dünyada baş verən qarşıdurmaların - qırğınların, kütləvi insan ölümlərinin qarşısının alınmasında Birləşmiş Millətlər Təşkilatı artıq önəmli rol oynaya bilmir, proseslərə real təsir göstərə bilmir. Ona görə də yeni dünya nizamının meydana gəlməsi çox ciddi bir reallıqdır. Yeni beynəlxalq təhlükəsizlik sisteminin yaranması bəşəriyyətin yaşamasının ən vacib şərti kimi qarşıda dayanır”.

YAP Sədrinin müavini deyib ki, Azərbaycanın, qardaş Türkiyənin və digər dost dövlətlərin yeni yaranacaq dünya nizamında yaxından iştirakı milli maraqlarımızın ən yüksək səviyyədə həyata keçirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir: ”Gündən-günə güclənən, qüdrətlənən Türkiyə, Azərbaycan və digər türk dövlətləri, eləcə də Azərbaycanla dost olan ölkələr dünyanın yeni nizamının və yeni təhlükəsizlik sisteminin yaranmasında yaxından iştirak edən aktorlar ola biləcəklər. Yalnız bunun sayəsində gələcək dünya nizamında, beynəlxalq təhlükəsizlik sistemində hər bir dövlətin, o cümlədən Azərbaycanın, Türkiyənin, bizə yaxın olan digər dövlətlərin maraqlarının nəzərə alınmasını təmin etmək mümkün olacaq. Bugünkü toplantımız da bu məsələlər ətrafında daha geniş fikir mübadiləsi aparmaq baxımından çox önəmlidir. Siyasi partiyalar olaraq bu prosesin geniş ictimaiyyət arasında müzakirə edilməsi və daha əlverişli mexanizmlərin işlənib hazırlanması üçün təkliflərin verilməsi müəyyən imkanlar yaradır”.

Qazaxıstanın ”AMANAT” Partiyasının İcra katibi Daulet Kəribek çıxışında Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın ürəyi, tarixi ədalətin bərpasının simvolu olan Şuşada yenidən görüşməkdən məmnunluq duyduğunu söyləyib. O qeyd edib ki, Şuşa artıq nüfuzlu beynəlxalq konfransların keçirildiyi məkana çevrilib: ”Bu, Şuşanın dialoq, həmrəylik və əməkdaşlıq platforması kimi artan rolunun bariz göstəricisidir. Konfransın Azərbaycan xalqı üçün müstəsna tarixi əhəmiyyətə malik Milli Qurtuluş Günündə keçirilməsi də rəmzi xarakter daşıyır. Məhz 32 il əvvəl Heydər Əliyev Azərbaycan xalqını və dövlətçiliyini parçalanmaqdan xilas edib, ictimai-siyasi sabitliyi bərpa edib. Onun müdrik rəhbərliyi altında ölkədə dərin siyasi və sosial-iqtisadi islahatlar həyata keçirildi. Azərbaycan böyük irəliləyişə nail oldu və dünya birliyinin nüfuzlu üzvünə çevrildi. Heydər Əliyevin həyatı xalqa fədakar xidmət nümunəsidir”.

”AMANAT” Partiyasının İcra katibi Azərbaycanın davamlı inkişafa malik olduğunu və beynəlxalq nüfuzunun artdığını vurğulayıb. O, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın tam suverenliyinin bərpa olunmasını bütövlükdə Cənubi Qafqaz üçün yeni dönəmin başlanğıcı kimi səciyyələndirib.

”Panel sessiyamızın mövzusuna diqqət yetirsək, əsas məqam yeni dövr anlayışıdır. Doğrudan da, bir neçə il əvvəl az ehtimal edilən bir çox məqamlar bu gün artıq reallıq olaraq gündəmdədir. Təəssüf ki, yeni dövr sakit şəkildə keçmir. Ekspertlərin fikrincə, 2024-cü il İkinci Dünya müharibəsindən sonra ən çox münaqişə yaşanan il olub, dünyada silahlı qarşıdurmaların sayı artıb” , - deyə o söyləyib.

D.Kəribek bildirib ki, bəşəriyyət artan iqlim çağırışları ilə də üz-üzədir: ”Ötən il çoxsaylı təbii fəlakətlər - daşqınlar, qasırğalar, yanğınlar baş verib. Təsadüfi deyil ki, ötən ilin noyabrında Bakıda keçirilən COP29 sammitində çıxış edən BMT Baş katibi Antonio Quterreş iqlim dəyişikliyi ilə mübarizədə təxirəsalınmaz addımlar atmağa çağırış etdi”.



Bu gün siyasi partiyaların əhəmiyyətinin və rolunun daha da artdığına diqqət çəkən ”AMANAT” Partiyasının İcra katibi partiyalararası dialoq vasitəsilə ölkələr arasında qarşılıqlı anlaşma və əməkdaşlığın möhkəmləndiyini deyib. ”Parlament çoxluğunu təmsil edən partiya kimi ”AMANAT” partiyalararası tərəfdaşlığı fəal şəkildə inkişaf etdirir. Bunu intensiv təmaslar, qarşılıqlı səfərlər və əməkdaşlıq üzrə hüquqi bazanın təkmilləşdirilməsi də təsdiqləyir. Ötən il ”AMANAT” və Yeni Azərbaycan Partiyası arasında imzalanmış Memorandum partiyalararası qarşılıqlı fəaliyyətin möhkəmlənməsinin parlaq nümunəsidir”, - deyən D.Kəribek əlaqələrin möhkəmləndirilməsinin regionun inkişafı və təhlükəsizliyi məsələlərində ortaq yanaşmaların formalaşmasına töhfə verdiyini bildirib.

Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyasının Siyasi Şurası İcra Komitəsinin Sədri, Özbəkistan Respublikası Ali Məclisi Qanunvericilik Palatasındakı UzLiDeP fraksiyasının sədri Aktam Xaitov çıxışında Azərbaycanda olduğu günlərdə ölkədə, xüsusilə də Qarabağda çox böyük quruculuq işlərinin aparıldığına şahid olduğunu deyib. Səfər zamanı bir çox ölkələrdən olan həmkarları ilə yaxın təmas qurmaq imkanı əldə etdiklərini söyləyən A.Xaitov konfransın Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağda, Şuşada keçirilməsinin mühüm əhəmiyyət daşıdığını bildirib. O, tarixi ədalətin bərpasından sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağda genişmiqyaslı bərpa-quruculuq işlərinin aparılmasının əhəmiyyətinə diqqəti cəlb edib: ”Özbəkistan daim Azərbaycanı bu istiqamətdəki səylərində dəstəkləyib və dəstəkləməyə davam edəcək. Son illər ərzində ölkələrimiz arasında ikitərəfli münasibətlər yeni yüksəliş mərhələsinə qədəm qoyub. İqtisadi və siyasi əlaqələrlə yanaşı, mədəni-humanitar əlaqələrimiz də yüksək səviyyəyə çatıb. Bu uğurlar, hər şeydən əvvəl, iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev arasındakı dostluğun və yaxın münasibətlərin nəticəsidir. Əminik ki, dövlətlərimiz arasındakı bu münasibətlər daha da inkişaf edəcək”.

Konfransın çox mühüm mövzuya həsr olunduğunu deyən A.Xaitov belə tədbirlərin aktual çağırışlara cavab axtarmaq imkanı yaratdığını söyləyib. ”Bu gün Yeni Azərbaycan Partiyası bizə bu mövzuları müzakirə etmək üçün geniş platforma təqdim edir və buna görə təşəkkür edirik. Biz şahidik ki, dövlət başçıları mövcud problemlərin həlli üçün birgə səylər göstərirlər. Müasir dövrdə bu problemləri yalnız birlikdə həll etmək mümkündür - bunun alternativi yoxdur. Bu proseslərdə siyasi partiyaların iştirak etməsi isə xüsusilə vacibdir”, - deyən A.Xaitov qlobal problemlərin təhlili və dərk olunması ilə yanaşı, onların həll yollarının axtarışında səylərin birləşdirilməsi istiqamətində konkret təkliflərə malik olduqlarını önə çəkib.

”Biz siyasi partiyalar olaraq aktual məsələlərin həllində və onların mahiyyətinin xalqa çatdırılmasında özünəməxsus körpü rolunu oynayırıq.

Ardı Səh. 8

# “Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar”

## Şuşada Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib

Əvvəli Səh. 7

Buna görə də hazırkı mürəkkəb qlobal şəraitdə ölkələrimizin yaxınlaşmasına xidmət edə biləcək daha bir istiqamət partiyalararası əlaqələrin möhkəmləndirilməsidir ”, - deyən A.Xaitov Özbəkistanın Liberal Demokrat Partiyasının bu imkanlardan daha geniş istifadə etmək məqsədilə bir sıra tərəfdaş partiyalarla, o cümlədən konfransın ev sahibi olan Yeni Azərbaycan Partiyası ilə əməkdaşlıq haqqında Memorandum imzaladığını xatırladıb.

Serbiya Tərəqqi Partiyası Sədrliyinin üzvü, Serbiya Respublikasının Avropa inteqrasiyası naziri Nemanya Staroviç çıxışında bildirib ki, Şuşada keçirilən beynəlxalq konfransda müzakirə edilən mövzular Serbiyanın da gələcəyə baxışının təməl prinsiplərini əhatə edir: ”Bu, milli suverenlik, regional əməkdaşlıq və qlobal təhlükəsizlik faktorlarıdır. Bu üç sütun həm ölkənin yol xəritəsini, həm də dəyişən dünyada tutacağı yeri müəyyənləşdirir. Serbiya üçün suverenlik sadəcə siyasi bir anlayış deyil, tarix boyunca qazandığı və qoruduğu haqqıdır. Biz daim dialoq və diplomatiya yolu ilə xalqın hüquqlarını və mədəni irsini qorumağa çalışırıq”.



N.Staroviç qeyd edib ki, ölkənin suverenliyinin qorunması əməkdaşlıqdan keçir: ”Bu səbəbdən Serbiya sabitlik və rifah üçün təşəbbüslər irəli sürür, səmərəli əməkdaşlıq həyata keçirir. Bu, iqtisadi inteqrasiyanı təşviq edir, sərbəst ticarət və əməkdaşlıq imkanlarını genişləndirir. Serbiya iqtisadi və təhlükəsizlik sahələrində də regionda etibarlı tərəfdaşı kim çıxış edir. Ölkəmiz sülhün təməlini dialoq və qarşılıqlı anlayışda görür”.

N.Staroviç söyləyib ki, ölkəsi ərazi baxımından kiçik olsa da, qlobal təhlükəsizlik məsələlərində aktiv rol oynayır: ”BMT çərçivəsində həyata keçirdiyimiz sülhməramlı missiyalar bu öhdəliyimizin göstəricisidir. Eyni zamanda, hərbi neytrallığımız sayəsində həm Şərq, həm də Qərblə əməkdaşlıq edərək balanslı siyasət yürüdürük. Biz həm sülh, həm də öz maraqlarımızı qorumaq iradəsinə sahibik. Serbiya öz suverenliyini qoruyan, səmərəli əməkdaşlıq edən və qlobal təhlükəsizliyə töhfə verən bir ölkə kimi gələcəyə inamla baxır”.

Panel sessiyasına yekun vuran moderator Zafer Sırakaya bildirib ki, bölgə üçün xüsusi əhəmiyyət daşıyan bu beynəlxalq konfransın qədim türk şəhəri olan əziz Şuşada keçirilməsinin böyük əhəmiyyəti var. Beynəlxalq ictimaiyyətin Qarabağda yaşanan zülmə biganə qaldığı vaxtlarda Türkiyənin ədalətin yerini tapacağına olan inamını qətiyyətlə ifadə etdiyini bildirən Z.Sırakaya Şuşa Bəyannaməsini ikitərəfli münasibətlərin müttəfiqlik səviyyəsinə qaldırılması iradəsinin bariz təzahürü adlandırıb və Bəyənnamənin dörd il öncə məhz bu torpaqlarda imzalanmasını böyük qürur kimi dəyərləndirib.

Moderator qeyd edib ki, Qarabağın azad olunması Cənubi Qafqazda əhəmiyyətli bir dönüş nöqtəsi olub. Artıq bölgədə Azərbaycanın liderliyi ilə sülh və sabitlik dövrü başlayıb. ”Regional təhlükəsizliyin ayrılmaz tərkib hissəsi olaraq Azərbaycanın Böyük Qayıdış proqramı çərçivəsində bu günə qədər çox sayda insanın Qarabağa geri dönməsi ilə fəxr edirik. ”Türk qapısı” olaraq adlandırılan Naxçıvanla Azərbaycanın əsas hissəsi arasında qurulacaq birbaşa əlaqə isə Orta Asiya ilə münasibətlərimizi daha da gücləndirəcək və əminik ki, Türk dünyasının gücünə güc qatacaq. Zəngəzur dəhlizi başda olmaqla regional nəqliyyat marşrutlarının yenidən açılması bölgədə sabitlik və rifaha töhfə verəcək, ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcək. İnanırıq ki, Azərbaycan Zəfərlə yanaşı, regionda sülhün də baş memarı olacaq” , - deyə Z.Sırakaya vurğulayıb.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, Türkiyə Böyük Millət Məclisinin üzvü Şamil Ayrımın moderatorluğu ilə ”Ədalət naminə həmrəylik: siyasi partiyaların rolu” mövzusunda keçirilən panel sessiyasında çıxış edən Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Şuşada Milli Qurtuluş Günündə keçirilən tədbir tarixi yaddaşa ehtiramın və gələcəyə yönəlik qətiyyətli baxışın təzahürüdür. Onun sözlərinə görə, xaosdan dövlət quruculuğuna, təhlükədən sabitliyə, ümidsizlikdən qurtuluşa gedən yol məhz Ümummilli Lider Heydər Əliyevin xalqın çağırışına cavab verməsi ilə başlandı: ”O dövrdə yalnız idarəçilik yox, inam, ümid və ləyaqət bərpa olundu”.

Bu gün dünyanın sürətlə dəyişdiyini deyən B.Muradovanın fikrincə, ədalət axtarışı lokal deyil, qlobal bir ehtiyaca çevrilib. ”Siyasi partiyalar bu axtarışda xalqların iradəsinin daşıyıcısı kimi çıxış etməlidirlər. Biz fərqli regionlardan ola bilərik, lakin ortaq bir amalımız var: ədalətli, sabit və dəyərlərə əsaslanan dünya nizamı qurmaq. Bugünkü mürəkkəb beynəlxalq mənzərə - istər silahlı münaqişələr, istər humanitar fəlakətlər, istərsə də qlobal iqlim və iqtisadi böhranlar onu göstərir ki, xalqlar arasında həmrəylik olmadan heç bir hüquqi norma işlək olmur”, - deyən YAP İdarə Heyətinin üzvü qeyd edib ki, bu baxımdan Avrasiya məkanında fəaliyyət göstərən siyasi partiyaların qarşılıqlı əməkdaşlığı son dərəcə mühüm əhəmiyyətə malikdir.

Bahar Muradova bildirib ki, bu əməkdaşlıq yeni beynəlxalq dialoq formatlarına çevrilməlidir. ”Yeni Azərbaycan Partiyasının təşəbbüsləri və açıq siyasəti digər partiyalarla sağlam tərəfdaşlığa geniş imkanlar yaradır. Hər bir xalqın öz taleyini azad şəkildə müəyyən etmək haqqı var. Hər bir dövlətin suverenliyi və ərazi bütövlüyü beynəlxalq hüququn ayrılmaz prinsipidir. Ədalət isə universal dəyərdir və coğrafiyaya görə dəyişməməlidir. Azərbaycan xalqı bu prinsipləri həyatın bütün sınaqlarından çıxardı. Qarabağın azad olunması təkcə ərazi bütövlüyünün bərpası deyil, eyni zamanda, tarixi ədalətin bərpasıdır. Şuşa bu gün yalnız mədəniyyətin deyil, həm də tolerantlıq və sülh iradəsinin təcəssümüdür”, - deyən B.Muradova əlavə edib ki, siyasi partiyalar olaraq insan ləyaqətini və azadlığını qorumalı, hüquq və ədaləti müdafiə etməli, həmrəyliyi isə yalnız çağırış kimi deyil, fəaliyyət kimi yaşatmalıyıq.



”Gəlin, siyasi rəqabəti əməkdaşlığa, ideoloji fərqliliyi birgə zənginliyə, dəyərləri isə hərəkətə çevirək. Çünki tarix susanları yox, danışan və dəyişənləri xatırlayır. Ədalət və həmrəylik yolunda bir addım belə atmaq insanlıq yolunda irəliləyişdir. İstərdik ki, siyasi institutlar, vətəndaş cəmiyyətləri heç zaman siyasi rəqabəti düşmənçiliyə, ədaləti haqsızlığa, əməkdaşlığı qarşıdurmaya qurban verməsinlər, qlobal həmrəyliyi gözləntidən reallığa, deklorasiyalardan fəaliyyətə çevirsinlər” , - deyə YAP İdarə Heyətinin üzvü vurğulayıb.

Çıxış edən Tacikistan Xalq Demokratik Partiyası Sədrinin birinci müavini Malikşo Nematzodanın sözlərinə görə, dünyanın müxtəlif yerlərində dövlətlərarası münaqişələr güclənir, fərqli regionlarda geosiyasi rəqabətin kəskinləşməsi müşahidə olunur. Onun sözlərinə görə, bu gün dünyada ziddiyyətli geosiyasi proseslər şiddətlənir, yeni silahlı münaqişələr, iqlim dəyişikliyinin fəsadları və digər qlobal təhlükə və təhdidlərin uzunmüddətli mənfi nəticələri meydana çıxır: ”Bu kontekstdə təhlükəsizliyin və sabitliyin qorunması, dayanıqlı inkişafın təmin edilməsi üçün birgə səylərin birləşdirilməsi hər zamankından daha zəruridir”.

M.Nematzoda qeyd edib ki, bir çox regionlarda siyasi və iqtisadi böhranların kəskinləşməsi şəraitində ölkə rəhbərləri sabitliyi və təhlükəsizliyi qorumaq, habelə iqtisadiyyatı gücləndirmək, bununla da əhalinin həyat səviyyəsini və keyfiyyətini yüksəltmək naminə yeni və aktual ideyalar axtarırlar. Onun fikrincə, qloballaşma prosesinin güclənməsi və müasir problemlərin hərtərəfli xarakter alması kontekstində yaşadığımız dünya çox həssas olub: ”Bu kimi amillərə uyğun yanaşma həm əlverişli yaşayış şəraitinin və davamlı inkişafın təmininə, həm də regional və beynəlxalq əməkdaşlığın imkanlarının genişləndirilməsinə mühüm töhfə verir. Partiyalararası əməkdaşlığa əsaslanan siyasi inteqrasiya davamlı inkişafa töhfə verən mühüm amilə çevrilə bilər”.

O diqqətə çatdırıb ki, Tacikistan həmişə region ölkələri və dünyanın digər dövlətlərinin siyasi partiyaları arasında əlaqələrin möhkəmləndirilməsi və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin tərəfdarı olub, gələcəkdə də bu mövqeyinə sadiq qalacaq: ”Bizim regionun üzv dövlətləri olaraq istifadə olunmamış nəhəng resurslarımız var ki, onlardan yalnız əməkdaşlıq yolu ilə istifadə edə bilərik. Eyni zamanda qeyd etməliyəm ki, Tacikistan Xalq Demokratik Partiyası Yeni Azərbaycan Partiyası ilə əməkdaşlıq edir və əlaqələri daha da genişləndirməyə hazırdır”.

Çıxış edən Belarusun ”Belaya Rus” Partiyası Sədrinin müavini Andrey Buqrov əmin olduğunu bildirib ki, Şuşada keçirilən konfrans əməkdaşlıq və tərəfdaşlığın inkişafına müsbət təsir göstərəcək. Hazırda dünyanın hərtərəfli etimada, ədalətə, mədəniyyətə ehtiyacı olduğunu deyən A.Buqrov ”Dünya sürətlə dəyişir, iqtisadiyyat rəqəmsallaşır. Ədalət bir arxitekturadır və onun siyasi memarı kimi siyasi partiyalar çıxış edirlər. Siyasi partiyaların daha canlı, daha fəal olması çox vacibdir”. Andrey Buqrov qeyd edib ki, siyasi partiyalar münaqişələri aradan qaldıra bilməsə də, bunun üçün əlindən gələni etməlidirlər: ”Ədalət hər bir ölkə üçün əsasdır. Belarus hər zaman ədalətin tərəfdarıdır. Bu gün Belarusun parlamentində 51 deputatımız fəaliyyət göstərir. Bu da ümumi deputatların 46 faizinə bərabərdir. Biz əlimizdən gələni edirik ki, partiya tarixi ədaləti qoruyub saxlasın”.

O bildirib ki, bu gün dünyada hər bir siyasi qüvvə özünəməxsusluğu qorumağa çalışır, amma həmfikir olduqda birgə nailiyyətlərə imza atmaq mümkündür.

Ukraynanın Xalqın Xidmətçisi Siyasi Partiyasının beynəlxalq əlaqələr üzrə katibi, Ukrayna Ali Radasının üzvü Vadim Halayçuk Şuşada keçirilən beynəlxalq konfransın dost ölkələrin siyasi partiyaları arasında münasibətlərin inkişafı və əməkdaşlığın dərinləşdirilməsi baxımından çox əhəmiyyətli olduğunu bildirib. O, təmsil etdiyi partiyanın parlamentdə 40 üzvünün olduğunu qeyd edib. ”Biz Ukrayna tarixində ilk dəfə parlamentdə çoxluq təşkil etmişik. Kifayət qədər səsimiz var ki, vacib islahatları həyata keçirək, ölkə inkişaf etsin”.

Vadim Halayçuk deyib ki, ədalətli dünya naminə səylərin birləşdirilməsi lazımdır: ”Beynəlxalq münasibətlər sistemində böyük dəyişikliklər baş verir. Olduqca mürəkkəb bir tarixi mərhələdə yaşayırıq. Beynəlxalq hüquq qorunmalı, ölkələr bir-birinin maraqlarını nəzərə alaraq bəşəri dəyərlərə uyğun siyasət həyata keçirməlidirlər”.

Moderator Şamil Ayrım qeyd edib ki, yeni dünya nizamının qurulduğu bir vaxtda Azərbaycan çox mühüm diplomatik və hərbi qələbələrə imza atıb. Onun sözlərinə görə, Azərbaycanın tam suverenliyinin bərpası müstəsna tarixi əhəmiyyətə malikdir: ”Təəssüf ki, bu gün bölgədə sülhün bərqərar olunmasını istəməyən bəzi qüvvələr regionu yenidən qarşıdurmaya sürükləmək üçün müxtəlif üsullara əl atırlar. Həmin qüvvələr unutmasınlar ki, Azərbaycan öz Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfər qazandı. Bu, ədalətin Qələbəsidir. Tarixi Zəfərdən sonra 2021-ci il 15 iyun tarixində Şuşa şəhərində Azərbaycan və Türkiyə liderlərinin imzaladıqları Şuşa Bəyannaməsi iki ölkə arasında dostluğun, qardaşlığın rəmzi olan son dərəcə qiymətli sənəddir”.

Sonra Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradovun moderatorluğu ilə ”Ortaq dəyərlər və süni intellekt: yeni təhdidlər və imkanlar” mövzusunda panel sessiyası keçirilib.

Çıxış edən Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey bildirib ki, son yüz ildə görünməmiş dəyişikliklər fonunda dünya önəmli transformasiya mərhələsinə daxil olaraq yeni kritik dönüş nöqtəsinə çatıb. Onun sözlərinə görə, beynəlxalq vəziyyətdəki dərin dəyişikliklər siyasi partiyaların, siyasətçilərin ictimai rəyin aparıcısı kimi çətinlikləri aradan qaldırmaq, transformasiya şəraitində islahatlar və yeniliklər həyata keçirmək məsuliyyətini daha da artırıb: "Hazırda süni intellekt kimi yeni texnologiyaların sürətli inkişafı elmi-texniki inqilabın və sənaye dəyişikliklərinin yeni mərhələsinin əsas hərəkətverici qüvvəsinə çevrilib.

Süni intellekt insanların həyatında və istehsalda misli görünməmiş imkanlar açır, qlobal idarəçilikdə yeni mühüm mövzu kimi siyasi partiyaların və hökumətlərin diqqətini cəlb edir. Çin hər zaman süni intellekt sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsinin tərəfdarı olub. Məqsəd bu texnologiyaların bütün bəşəriyyətin rifahına xidmət etməsini təmin etmək və süni intellektin zənginlərin və güclü ölkələrin oyuncağına çevrilməsinin qarşısını almaqdır".

2023-cü ildə Çin Xalq Respublikasının Sədri Si Cinpinin "Süni İntellektin İdarəedilməsi üzrə Qlobal Təşəbbüs" irəli sürdüyünü xatırladan diplomatın sözlərinə görə, bu, insanların rifahının yaxşılaşdırılması və sosial-iqtisadi inkişafın təşviqi, habelə yeni texnologiyalardan sui-istifadənin qarşısının alınması məqsədilə insan mərkəzli süni intellektin inkişafına sadiqliyi özündə əks etdirir.

Səfir qeyd edib ki, Çin ilə Azərbaycan dost və etibarlı tərəfdaş ölkələrdir. Diplomatik əlaqələrin qurulmasından keçən 33 il ərzində ikitərəfli münasibətlərin sağlam və sabit şəkildə inkişaf etdiyini vurğulayan Lu Mey müxtəlif sahələrdə əməkdaşlığın məhsuldar nəticələr verdiyini deyib. Onun sözlərinə görə, son illərdə Çin Xalq Respublikasının Sədri Si Cinpin və Prezident İlham Əliyevin şəxsi diqqəti və strateji rəhbərliyi sayəsində Çin-Azərbaycan münasibətləri yeni inkişaf mərhələsinə daxil olub. "Bu ilin aprelində Prezident İlham Əliyevin Çinə uğurlu dövlət səfəri baş tutdu və ölkələrimiz arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulması haqqında Birgə Bəyanat imzalandı. Müxtəlif sahələr üzrə əməkdaşlığın dərinləşdirilməsi üçün vacib razılaşmalar əldə olundu və bu, ikitərəfli münasibətlərdə yeni bir tarixi mərhələnin başlanğıcını qoydu", - deyən səfir bildirib ki, siyasi partiyalararası münasibətlər Çin-Azərbaycan əlaqələrinin mühüm tərkib hissəsidir. Onun sözlərinə görə, Çin Kommunist Partiyası Yeni Azərbaycan Partiyası ilə institusional əməkdaşlığa böyük əhəmiyyət verir: "Partiyalar arasında münasibətlər Çin-Azərbaycan əlaqələrinin inkişafına mühüm töhfələr verir".

Bolqarıstanın Haqq və Azadlıqlar Hərəkatı parlament fraksiyası sədrinin müavini Ceyhan İbryamov bildirib ki, Balkan ölkəsi olaraq Bolqarıstan fərqli mədəniyyətləri kəsişdiyi bir coğrafiyadır. O qeyd edib ki, qardaş ölkələrdə yaşayan dostları bir araya gətirən bu cür konfranslar sülh, əmin-amanlıq uğrunda mübarizə aparmağın göstəricisidir: "Şuşada - Türk dünyasının mədəniyyət mərkəzində belə bir konfransda iştirak etmək Bolqarıstan nümayəndə heyəti üçün böyük şərəfdir. Azərbaycan xalqını 15 İyun - Milli Qurtuluş Günü münasibətilə təbrik edirəm".

O qeyd edib ki, dost ölkələri bir araya gətirən konfrans son dərəcə aktual mövzuları özündə ehtiva edir: "Süni intellekt ədaləti, azadlığı, bərabərliyi, həmrəyliyi daha da gücləndirmək vasitəsinə çevrilməlidir. Onunla bağlı problemləri şəffaf, sərbəst, etik və məsuliyyətli şəkildə həll etmək lazımdır".

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov qeyd edib ki, süni intellekt mövzusu müasir dövrün ən aktual məsələlərindəndir. Bu sahədə qazanılan nailiyyətlərdən artıq inkişaf etmiş ölkələr kifayət qədər istifadə edir. Ümumiyyətlə, müasir texnologiyalardan istifadə etmək cəmiyyəti, ölkəni kifayət qədər irəli aparır. Azərbaycan 44 günlük Vətən müharibəsində ən müasir texnologiyalardan istifadə edərək hərb sənətinə yeni bir istiqamət gətirdi. Dinc sakinlərə toxunmadan hər hansı bir hərbi hədəfləri vurmaqla Azərbaycan sübut etdi ki, müasir texnologiyalardan istifadə etməklə qarşıya qoyulan məqsədlərə ən qısa müddətdə çatmaq olar".

Dünyada yeni texnologiyalardan istifadənin sürətlə genişləndiyini bildirən E.Qasımov vurğulayıb ki, artıq xüsusi proqramlar vasitəsilə diaqnostika və cərrahiyyə əməliyyatları aparılır: "Süni intellekt tətbiq etməklə avtomobilləri istehsal edərək sürücülər olmadan marşrutlara buraxırlar. Artıq bir sıra inkişaf etmiş ölkələrin şirkətlərində mühasibatlıqlar ləğv edilir, maliyyə hesabatları süni intellekt vasitəsilə bir neçə saat ərzində dəqiq həll edilir. Bütün bunlar həm böyük üstünlüklər yaradır, həm də müəyyən problemlərə yol açır. Beləliklə, bu müsbət elementlərin birinci təhdidi odur ki, işsizlik əmələ gəlir. Çünki milyonlarla insan işsiz qala bilər. Bu təhdidlərin qarşısını almaq üçün həmin mütəxəssislərə indidən əlavə bacarıqlar verilməlidir. İkinci ən mühüm məsələ milli təhlükəsizliyə olan təhdiddir".

E.Qasımov Çin təcrübəsinin daxildən və xaricdən təhlükələrin qarşısını almaq üçün nümunəvi model olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, Azərbaycan üçün bu sahədə geniş imkanlar var: "Azərbaycan ilə Çin arasında uğurlu əməkdaşlıq əlaqələri mövcuddur. Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlıq əlaqələri uğurla inkişaf edir. Hesab edirik ki, bizim ali məktəblər, universitetlər Çinin təcrübəsindən yararlanmalıdır".

Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Tahir Mirkişili çıxışında bildirib ki, XXI əsrin ən önəmli texnoloji nailiyyətlərindən biri olan süni intellekt dərin dəyişikliklər yaradır. Onun sözlərinə görə, süni intellektin inkişafı ilə ortaq dəyərlərin qorunması arasında tarazlıq yaratmaq çağımızın əsas çağırışlarından biridir: "Bu prosesdə əsas məqsəd texnologiyanın insanlığa xidmət etməsi və bəşəriyyətin rifahını artırması olmalıdır".

T.Mirkişili deyib ki, süni intellekt artıq gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilməkdədir. Onun sözlərinə görə, süni intellekt axtarış motorlarından tibbi diaqnostikaya, maliyyə xidmətlərindən təhsil sistemlərinə qədər müxtəlif sahələrdə istifadə olunur: "Generativ süni intellekt sistemləri yaradıcılıq və məhsuldarlıq sahələrində də inqilab yaratdı. Lakin bu sürətli inkişaf texnologiyanın insani dəyərlərlə uyğunluğu məsələsini daha aktual məsələyə çevirib. Ortaq dəyərlər müxtəlif mədəniyyət və cəmiyyətlərdə paylaşılan əsas prinsiplərdir ki, bunlara bir sıra amillər daxildir. Belə ki, insan ləyaqəti və hüquqları, ədalət və bərabərlik, şəffaflıq və hesabatlılıq və digər amillər burada xüsusi vurğulanmalıdır".

Deputat qeyd edib ki, süni intellekt sistemlərinin qəbul etdiyi qərarlarda səhv baş verdikdə məsuliyyəti kimin daşıyacağı aydın deyil: "Süni intellekt sistemləri böyük həcmdə şəxsi məlumat toplamağa qadirdir, bu da fərdiyyət və məxfilik hüquqlarını təhdid edir. Süni intellektin ortaq dəyərlərlə uyğunlaşdırılması üçün müxtəlif yanaşmalar mövcuddur. Cəmiyyətin bütün təbəqələri süni intellekt texnologiyaları haqqında məlumatlandırılmalı və onların potensial təsirləri barədə bilikli olmalıdır. Hökumətlər süni intellekt sistemlərinin etik istifadəsini təmin edən qanunlar və standartlar hazırlamalıdır. Biz Türk Dövlətləri Təşkilatı çərçivəsində model qanun layihəsinin hazırlanmasına da nail ola bilərik. Süni intellekt texnologiyaları qlobal xarakter daşıdığı üçün beynəlxalq əməkdaşlıq və koordinasiya zəruridir. Özünəməxsus zəngin dəyərlərin qorunmasına xüsusi diqqət verən Azərbaycan və digər ölkələr üçün süni intellekt texnologiyalarının ortaq dəyərlərlə uyğunlaşdırılması xüsusən vacibdir. Ənənəvi dəyərlər və müasir texnologiyalar arasında balans yaratmaq, milli mədəni dəyərləri qoruyub saxlamaqla yanaşı, qlobal süni intellekt standartlarına uyğunluğu təmin etmək vacibdir. Azərbaycanda qəbul edilmiş süni intellekt strategiyası bu istiqamətdə mühüm addımdır. Süni intellekt və ortaq dəyərlər arasında körpü qurmaq sadəcə texniki məsələ deyil, eyni zamanda, fundamental insani məsələdir. Bizim məqsədimiz süni intellekt texnologiyalarını insan ləyaqətini qoruyan, ədaləti gücləndirən və cəmiyyətə fayda verən şəkildə inkişaf etdirmək olmalıdır. Bu, kollektiv səy və davamlı dialoq tələb edir. Texnologiyanın gələcəyini formalaşdıran insanlardır və gələcəyin necə olacağı bizim indiki seçimlərimizdən asılıdır".

Moderator Ədalət Muradov isə qeyd edib ki, Milli Qurtuluş Günü milli kimliyimizə və tariximizə bağlılıq, dil və mədəniyyətin qorunması, dövlət rəmzlərinə hörmət kimi dəyərləri dövlət siyasətinin mərkəzinə daşıyıb. Onun fikrincə, bu amil Milli Qurtuluş Gününü dəyərlər üzərində qurulmuş siyasi və ideoloji yenidənqurmanın simvoluna çevirir: "Bu gün biz həmin tarixi irsin daşıyıcıları olaraq Şuşa kimi müqəddəs bir məkanda ortaq dəyərlər və süni intellekt mövzusunda müzakirə aparırıq. Bu, təkcə elmi və texnoloji deyil, həm də ideoloji və mənəvi bir məsələdir. Bu, keçmişin irsi ilə gələcəyin zəkası arasında körpü rəmzidir".

YAP İdarə Heyətinin üzvü əlavə edib ki, tədbirin məhz Şuşada keçirilməsinin bir sıra rəmzi mənası var: "Şuşa-Azərbaycan mədəniyyətinin beşiyi, milli kimliyin, mədəni irsin simvoludur. Bu şəhərdə dəyərlərdən danışmaq milli yaddaşın bərpasını ifadə edir. İşğaldan azad olunmuş torpaqlarda mənəvi dirçəliş baş verir".

Ə.Muradov qeyd edib ki, süni intellekt qlobal məsələdir: "Amma dəyərlər milli - mənəvi kimliyimizə bağlıdır. Konfransda bir sıra ölkələrdən nümayəndələrin iştirakı isə müxtəlif mədəniyyətlər arasında dəyər mübadiləsinin vacibliyini ortaya qoyur. Yəni Azərbaycan dəyərlərə əsaslanan texnoloji inkişafla gələcəyə töhfə verməyə çalışır".

Onun sözlərinə görə, dünyada süni intellekt və rəqəmsallaşma ilə bağlı tədqiqatlar aparılsa da, bu texnologiyanın milli dəyərlərə təsiri barədə müzakirələrə nadir hallarda rast gəlinir. "Əminliklə deyə bilərəm ki, bu konfrans Yeni Azərbaycan Partiyasının gələcəyə baxışının göstəricisidir. Bu, onun həm bu günün, həm də sabahın partiyası olduğunu bir daha sübut edir", - deyə rektor bildirib. Konfrans Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Beynəlxalq konfransın iştirakçıları Şuşa və Xankəndinin tarixi məkanları, aparılan tikinti və bərpaquruculuq işləri ilə tanış olublar.



# Körfəz kampaniyası



2025-ci il iyunun 13-nə keçən gecə Benyamin Netanyahunun başçılıq etdiyi İsrail hökuməti İrana qarşı gizli (danışıqlar adı altında), amma bir çox elementləri daha uzun müddətə hazırlanmış ən azı bir illik hərbi əməliyyata başladı. İlk bir neçə gündə İsrail sürpriz elementindən, dərin yerləşdirilmiş təxribat hücrələrindən və pilotsuz təyyarələrdən istifadə edərək İrana ciddi ziyan vurmağı bacardı. Buna baxmayaraq, İsrail internetində və simpatik ictimaiyyətdə hökm sürən qalib eyforiyasına baxmayaraq, Netanyahunun farslar üzərində qəti qələbəsi göz önündə deyil. Amma müəyyən məsafədən "Yüksələn Aslan" əməliyyatının arzuolunmaz nəticələri görünür, bütün dünya üçün təhlükəlidir. Həqiqətən nə görürük? İranın İsrail tərəfindən hərbi məğlubiyyəti yoxdur və şübhəsiz ki, gözlənilmir.

İran ordusu və təhlükəsizlik qüvvələrinin rəhbərliyində itkilər sürətlə artır, sonra isə xarici təchizatlar sayəsində hava hücumundan müdafiə sistemlərinin və uzaqmənzilli raketlərin arsenalının qismən bərpasına artıq başlanılıb. "Təcavüz qurbanına" kömək üçün müxtəlif kanallar vasitəsilə təchizat axını artacaq. Yeraltı nüvə obyektləri, İsrailin Tramp administrasiyası dövründə gizli şəkildə idxal etdiyi Amerika dərinlik ittihamlarından istifadə etməsinə baxmayaraq, sağ qalıb. Netanyahunun İran əhalisinə ("Biz sizin xalqınız tərəfdarıyıq, amma rejimə qarşıyıq") müraciətinə baxmayaraq, ölkədə daxili sabitliyin pozulmasından əsər-əlamət yoxdur. Küçə iğtişaşları və ya saray çevrilişi potensialı sıfıra yaxındır.

Netanyahunun münaqişə ssenarisi aydın şəkildə refleksiv idarəetmə üçün nəzərdə tutulmuşdu. Gözlənilirdi ki, xaricdən və daxildən hücumlar və şəxsi terrorla birbaşa təcavüzə cavab olaraq İran İsraillə müharibə elan edəcək, MAQATE nümayəndələrini ölkədən qovacaq, nüvə proqramı ilə bağlı hər hansı danışıqlardan imtina edəcək, Hörmüz boğazını bağlayacaq və ən əsası ABŞ hərbi bazalarına zərbələr endirəcək. İsrail-Amerika tandemi və onların Qərb müttəfiqlərinin əli sərbəstdir və qırmızı xətlər yoxdur. İranın hərbi məğlubiyyəti yalnız İsrail və ABŞ-ın genişmiqyaslı birgə hərəkətləri ilə mümkün olub. "Aslan və qartal"ın birgə həlledici hücumu ssenarinin əsas hissəsi idi və hələ də qalır. ABŞ prezidenti Donald Trampa müharibəyə girmək qərarına gəlmək üçün aşkar və inandırıcı bəhanə lazım idi - Amerika obyektlərinə hücum və şəxsi heyətin itkiləri.

Amerikalıların hazırda Yaxın Şərqdə CENTCOM-un komandanlığı altında ən azı 19 obyektdə 40 minə yaxın əsgəri var. Suriyada və İraqda kontingentlər xüsusilə həssasdır. Ən böyük iştirak Qətər və Bəhreyndə, əhəmiyyətlisi Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Küveytdədir. İsraildə iki Amerika bazası var. Müharibənin əsas mərhələsinə (Tehranda zorla rejimin dəyişdirilməsi) keçmək üçün "Yüksələn Aslan" operatorlarına təcili olaraq İranın əks-təcavüzü lazımdır: ABŞ və müttəfiqlərinə qarşı təhdidlər, terror hücumları və birbaşa hücumlar. Trampın müharibəyə müdaxilə etmək üçün hüquqi və mənəvi mandat alması üçün casus mümkün qədər mübariz olmalıdır.

İndiyədək Tehran kanonik beynəlxalq hüquq baxımından qüsursuz beynəlxalq xətt yürüdür. İran danışıqlara sadiqliyindən danışır, nüvə silahına sahib olmaq niyyətindən və onları əldə etmək cəhdlərindən imtina edir, MAQATE ilə işləməyə davam edir. Dinc hücumunu intensivləşdirən İran nüvə silahından əbədi imtinanı xüsusi zəmanət sazişi şəklində rəsmiləşdirməyə hazır olduğunu bəyan edib. Netanyahunun fars kampaniyasına beynəlxalq reaksiyalar qarışıqdır və çoxları hələ də gözləyir. Pakistan və Əlcəzair liderləri İrana birbaşa dəstək mövqeyindən çıxış edirlər. KXDR lideri Kim Çen In təcavüzün qurbanı kimi İrana dərhal əməli yardım göstərilməsindən danışır.

İndi ərəb dünyasının hansı istiqamətə meyllənəcəyini görmək vacibdir. Ehtimal olunur ki, kiçik İordaniya krallığı öz qabığında gizlənib. Lakin Misir rəhbərliyi və Səudiyyə Ərəbistanının sünni lideri İsrailin açıq-aşkar təcavüzü adlandırdıqları hadisəni "qətiyyətlə pisləyib". Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman İran prezidenti Məsud Pezeşkian ilə telefon danışığında iranlılara şəxsi başsağlığı və dəstəyini bildirib. Ərəb Liqasının qalan hissəsi tezliklə bu xətti izləyəcək. Rusiya və Çin hərbi əməliyyatları dayandırmağa və danışıqlara qayıtmağa çağırıblar. Eyni zamanda, Rusiya açıq şəkildə, o cümlədən BMT Təhlükəsizlik Şurasında İsrailin uzun müddətdir eşidilməyən hərəkətlərini sərt ifadələrlə pisləyib. Ola bilsin ki, pilotsuz təyyarələrlə təxribat əməliyyatlarında heyrətamiz oxşarlıq Moskvaya sərtlik qatıb: məlum olub ki, Kiyev diversantları iyunun 13-də İranda İsrail diversantlarının etdikləri kimi Rusiya Federasiyasında da hərəkət ediblər. Burada "qeyri-müəyyən şübhələr" tamamilə təbiidir.

İsrailin hərbi əməliyyatı indi yol ayrıcındadır. Tehranda rəhbərliyin zorla dəyişdirilməsinə yönəlmiş sürətli quru əməliyyatı olmadan, Netanyahu əsas vəzifələrindən heç birini həll etməyəcək. Amma ABŞ-ın birbaşa və tammiqyaslı iştirakı olmadan belə bir əməliyyat uğursuzluqla nəticələnəcək. Tramp iştirakdan imtina etsə, bu, sadəcə olaraq baş verməyəcək. Aydındır ki, İran beynəlxalq hüquq çərçivəsində qalaraq getdikcə artan beynəlxalq yardımlar alacaq və "müdafiəsiz" İranı məhv etməyə davam edən İsrail isə getdikcə qınaqla üzləşəcək. Rusiya İranla (17.01.25-ci il tarixli) Hərtərəfli Strateji Tərəfdaşlıq Müqaviləsinə uyğun olaraq, İranın nüvə proqramı ətrafında fikir ayrılıqlarının həlli üçün ABŞ və İran arasında danışıqlarda öz vasitəçiliyini artıq rəsmən təklif edib. Trampın reaksiyasına görə, sülh onun üçün təhlükəli hərbi macəradan daha üstündür, xüsusən də ABŞ-da artan daxili qarışıqlıq fonunda.

Görünür, Netanyahunun fars kampaniyası onun üçün nəticəsiz başa çatacaq. Bundan sonra baş nazirə və hökumətə siyasi opponentlər tərəfindən qanun layihəsi təqdim ediləcək. Uzunmüddətli nəticələr daha pis ola bilər. Netanyahu ilk dəfə olaraq genişmiqyaslı təxribatı kütləvi xarici hücumla birləşdirərək, İslam ölkələrində güc yolu ilə rejim dəyişikliyi etməyə hazır olduğunu nümayiş etdirdi. Bu yeni təhlükə, şübhəsiz ki, bütün ərəb və islam rejimləri tərəfindən nəzərə alınacaq. Onlar da təəccüblənəcəklər: doğrudanmı Tehran nüvə proqramında bu qədər səhvdir? Atom siperinə olan xəstə ehtiras yayıla bilər.

## ABŞ prezidenti İranla döyüşə çağırılır

ABŞ prezidenti Donald Tramp İsrail və İran arasında münaqişənin tez bir zamanda bitməsinin mümkünlüyünü açıqlayıb, eyni zamanda, hərbi əməliyyatların davam edəcəyini və Amerikanın onlara qarışacağını istisna etmir. İsrail ordusunun hərbi əməliyyatına müdaxilə etmədən Donald Tramp çətin seçim qarşısındadır: özünü qarşıdurmada iştirak etməməklə məhdudlaşdırmaq və ya İsrailin qələbəsi və İranın nüvə obyektlərinin tamamilə məhv edilməsi üçün lazımi yardımı göstərmək. İsrail mediasının məlumatına görə, ölkə hökuməti həlledici mərhələdə Donald Trampı İrana qarşı hərbi kampaniyaya qoşulmağa razı salmaq cəhdlərindən əl çəkmədən Vaşinqtonla təmaslarını davam etdirir. ABŞ prezidenti Donald Tramp iyunun 15-17-də Kananaskisdə keçirilən G7 sammiti üçün Kanadaya uçmazdan əvvəl İsrail və İran arasındakı qarşıdurma ilə bağlı yeni açıqlama verib: "Ümid edirəm ki, razılaşma olacaq. Düşünürəm ki, razılaşmanın vaxtı çatıb". Bununla belə, o, hərbi əməliyyatların davam edəcəyini istisna etməyib və əlavə edib: "Ancaq bəzən mübahisəni sona çatdırmaq lazımdır. Görək nə olacaq". Həmin gün Ağ Evin rəhbəri "Truth Social" sosial şəbəkəsində "Tezliklə İsraillə İran arasında sülhün bərqərar olacağını" yazıb, həmçinin ABŞ-ın İsrailin hərbi əməliyyatı ilə "heç bir əlaqəsi olmadığını" qeyd edib. "Əgər İran bizə hər hansı formada hücum edərsə, Birləşmiş Ştatların ordusunun bütün qüdrəti indiyədək heç vaxt görünməmiş miqyasda onların üzərinə düşəcək", o əlavə edib.

Ağ Ev rəhbərinin ifadələrinin qeyri-müəyyənliyini nəzərə alaraq, onun bəyanatları müxtəlif şərhlər alıb. ABŞ prezidentinin sazişə dair çağırışını ilk dəstəkləyənlərdən biri iyunun 15-də Donald Trampla telefon danışığı aparan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan olub. "Anadolu" agentliyinin verdiyi məlumata görə, Türkiyə lideri Ağ Ev rəhbərini Yaxın Şərq münaqişəsinin gərginləşməsinin qarşısını almaq üçün çevik addım atmağa çağırıb və İranın nüvə probleminin həllinin yeganə yolunu diplomatiya adlandırıb. O, həmçinin Türkiyənin nizamlanma prosesinə qoşulmağa hazır olduğunu açıqlayıb.

## İsrail-İran münaqişəsi necə bitəcək

İyunun 16-da İsrail və İran arasındakı münaqişə daha əvvəl Donald Trampla Yaxın Şərqdəki qarşıdurmanı müzakirə edən Rəcəb Tayyib Ərdoğanla Rusiya prezidenti Vladimir Putin arasında telefon danışığının mövzusu olub. Vladimir Putinin mətbuat katibi Dmitri Peskovun dediyi kimi, Rusiya lazım gələrsə, münaqişənin həlli üçün vasitəçilik xidmətləri göstərməyə hazırdır. Cənab Peskov onu da qeyd edib ki, Rusiya münaqişənin təhlükəli eskalasiyasına səbəb olan hərəkətləri pisləyir.

Sülh razılaşması və gərginliyi azaltmaq üçün yollar axtaran Rusiya və Türkiyə liderləri arasında məsləhətləşmələrin mümkünlüyünü açıqlayan prezident Trampın deklarativ optimizmi fonunda nə İsrail, nə də İran hələlik buna hazır deyil. Reuters agentliyinin iyunun 16-da diplomatik mənbəyə istinadən verdiyi məlumata görə, İran rəsmiləri Qətər və Omandakı vasitəçilərə açıq şəkildə bildiriblər ki, İsrailin zərbələri davam etdiyi bir vaxtda Tehran İsraillə atəşkəs məsələsini müzakirə etmək niyyətində deyil. "İranlılar mediaya bildiriblər ki, onlar ciddi danışıqlara yalnız İran İsrailin zərbələrinə cavab verdikdən sonra hazır olacaqlar", - mənbə Reuters agentliyinə bildirib. O, həmçinin İranın Oman və Qətərdən ABŞ-dan atəşkəs və nüvə danışıqlarını bərpa etməsini istəməsi ilə bağlı daha əvvəl mediada yayılan xəbərləri yanlış adlandırıb.

İran prezidenti Məsud Pezeşkian iyunun 16-da parlamentdə çıxışı zamanı ABŞ-ı tənqid atəşinə tutub və onları İsrail əməliyyatında şəriklər adlandırıb. "Amerika, beynəlxalq hüququn bütün normalarına zidd olaraq, İsrailə təcavüz etməyə və ölkəmizə hücum etməyə icazə verir. Biz müharibə istəməmişik və müharibəyə başlamamışıq. Ölkənin yüksək rütbəli hərbçilərini və alimlərini biz öldürməmişik, bunu bu terrorçular etmişlər", - deyə Məsud Pezeşkian "birləşməyə və təcavüzə qarşı qəti addımlar atmağa" çağırıb. O, həmçinin təsdiq edib ki, İran İsrailin zərbələrinə baxmayaraq, nüvə proqramlarının inkişafından əl çəkməyəcək. "Bizim nüvə enerjisindən istifadə etmək və cəmiyyətin xeyrinə araşdırma aparmaq hüququmuz var. Heç kimin bunu əlimizdən almağa haqqı yoxdur", - Məsud Pezeşkian deyib.

Bundan əvvəl İranın xarici işlər naziri Abbas Əraqçi Tehranda xarici diplomatlarla görüşündə bildirmişdi ki, İran tərəfində ABŞ-ın İslam Respublikası ərazisinə zərbə endirməkdə İsrailə yardım etdiyinə dair sübutlar var. "İsrailin İrana qarşı təcavüzü ABŞ-ın razılığı və dəstəyi olmadan həyata keçirilə bilməzdi", deyən Abbas Əraqçi qeyd edib ki, münaqişəyə görə məsuliyyət təkcə İsrailin deyil, həm də ABŞ-ın üzərinə düşür. Qarşıdurmanın sonrakı gedişatı prezident Trampın hansı addımlar atacağından asılı olacaq: o, İsrailə siyasi dəstək və İranın hücumlarını dəf etməyə kömək etmək kimi əvvəlki mövqeyində qalacaq, yoxsa ABŞ-ın bütün hərbi gücünü İsrail-İran münaqişəsi miqyasına atmaq qərarına gələcək. Ağ Evdə hələlik yekun qərarın verilmədiyini CBS News kanalının ABŞ Dövlət Departamentinin Vaşinqtonun İrana qarşı "İsrailin birtərəfli hərəkətləri"ndə iştirak etməməsi barədə məlumat yaymaq üçün Amerika səfirlikləri və konsulluqlarına təlimat göndərməsi ilə bağlı xəbəri də təsdiq edə bilər.

Direktivə əsasən, Amerika diplomatik missiyaları ABŞ-ın İsrail əməliyyatında iştirak etməməsi və "İranda nüvə probleminin diplomatik yolla həllinə sadiq qalması" barədə ev sahibliyi edən ölkələrin hakimiyyət orqanlarına məlumat verməlidir. Amerika diplomatlarına həmçinin tərəfdaşlara ABŞ hökumətinin "öz vətəndaşlarının, bazalarının və infrastrukturunun təhlükəsizliyini" birinci yerə qoyduğunu çatdırmaq tapşırılıb. Eyni zamanda, Vaşinqtonun ABŞ-ın İsrail-İran münaqişəsində daha fəal iştirakını istisna etmədiyinə dair sübutlar artır. "Military Watch" jurnalının yazdığına görə, ABŞ Hərbi Hava Qüvvələrinə məxsus KC-135 və KC-46 havada yanacaq dolduran təyyarələr kütləvi şəkildə bazalarını tərk edir və onların getməsi onların İsraillə İran arasındakı münaqişədə istifadə olunacağı anlamına gələ bilər.

Jurnal yazır: "ABŞ Hərbi Hava Qüvvələri Amerika materikindəki bazalardan Atlantik okeanı boyunca görünməmiş KC-135 və KC-46 hava yanacaq dolduran tankerlər yerləşdirib və bu, təyyarənin davam edən İsrail-İran müharibəsi üçün nəzərdə tutula biləcəyi ilə bağlı ciddi fərziyyələrə səbəb olub". Military Watch-a görə, bazar ertəsi gecə 30 tanker artıq ABŞ-dan yola düşüb və onların sayı artmaqda davam edir. Bundan əlavə, Reuters-in xəbər verdiyi kimi, İsrail və İran arasında münaqişə fonunda ABŞ "əməliyyat ehtiyaclarına görə" bir təyyarədaşıyan gəmini Cənubi Çin dənizindən Yaxın Şərqə yerləşdirir.

Prezident Trampın Vaşinqtonun Yaxın Şərqdəki növbəti addımları barədə hələ qərar vermədiyini nəzərə alan "The Jerusalem Post" İsrail rəsmilərinə istinadən yazır ki, ölkə hökuməti Vaşinqtonla məxfi təmasları davam etdirir, onu İrana qarşı hərbi kampaniyaya qoşulmağa razı salmağa çalışır. "Ümid edirik ki, bu baş verəcək", - nəşrin mənbələrindən biri bildirib. Öz növbəsində Amerikanın aparıcı KİV-ləri Trampın aktiv manipulyasiyasına qoşularaq, ABŞ prezidentini İsrailə İranın nüvə obyektlərinə həlledici zərbə endirməsinə kömək etməyə çağırıblar. "The Wall Street Journal" "İsrail İranın nüvə proqramına zərbə vurdu, lakin bu hələ nokaut deyil" sərlövhəli məqalədə qeyd edir ki, ABŞ bitərəf qalmağa gücü çatmaz, bu isə "daha uzun müharibə" demək olardı. Nəşr prezident Trampı "oyuna girməyə" çağıraraq, "İsraildə onları çatdırmaq üçün dərinlikdə yüklər və ağır bombardmançılar yoxdur ki, bu da İranın bərkidilmiş obyektlərinə daha çox ziyan vura bilər. ABŞ-ın hər ikisi var və İsrail bu nüvə obyektlərinin məhv edilməsində ABŞ-dan kömək almaq istəyir".

**V.VƏLİYEV**

# Ümid yerimiz, şəfa diləyimiz...

**Prezident İlham Əliyev: "Yorulmadan, fədakarlıqla insanların sağlamlığı üçün mübarizə aparan tibb işçilərimiz ən böyük hörmətə layiqdirlər. Azərbaycan həkimlərinə eşq olsun"**

***Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı Sərəncama əsasən, hər il iyunun 17-si ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur. Bu günün mənbəyi Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlıdır. 1918-ci il mayın 28-də Azərbaycan dövlət müstəqilliyini elan etdi. Milli hökumət iyunun 16-da Tiflisdən Gəncəyə köçdü. Səhəri gün hökumətin kabinəsində ilk Səhiyyə və Sosial Təminat naziri vəzifəsi Xudadat bəy Rəfibəyliyə tapşırıldı.***



## Ağxalatlılardan danışmaq istəyirəm...

Ağ xalat geyinənlərdən, insanların sağlamlığının keşiyində dayananlardan danışmaq istəyirəm. Ən çətin, məsuliyyətli, gecəsi-gündüzü olmayan peşə sahiblərindən-həkimlərdən, tibb işçilərindən danışmaq istəyirəm. Sağlamlığımızı, bütövlükdə taleyimizi etibar etdiyimiz ağ xalat geyinənlərdən danışmaq istəyirəm.

Onlar həqiqətən çətin bir peşənin sahibləridirlər. Çünki insanların sağlamlığıdır onların işinin mahiyyəti. Canlı varlıqlarla təmasdadır onlar. Bir kiçik səhv ilə həyatı tamamlanan, bir məsuliyyətli yanaşma ilə ölümdən xilas edilənlərlədir onların işi.

İnsan amili... İnsan sağlamlığı bütün ağ xalat geyinənlərin fəaliyyətinin prioritetidir. Tək fəaliyyətininmi? Xeyr, insan amili həm də onların hər birinin insanlığa dəyəri, qiymətidir. Çünki bu dəyər olmasa, məsuliyyət olmaz, məsuliyyət olmasa, insanlar sağlamlığını-həyatlarını itirərlər.

## Müstəqilliyimizin səhiyyəyə töhfəsi

Müstəqillik illərində ölkəmizdə tibb işçiləri üçün hərtərəfli şərait yaradılmışdır. Müstəqilliyimizin bərpası illərindən bu günədək yüzlərlə hospital, xəstəxana, klinika, həkim ambulatoriyası və tibb məntəqəsi tikilib istifadəyə verilmişdir. Əgər sovet imperiyasının əsarətində olduğumuz illərdə ölkəmizdə baxımsız, bu səbəbdən də geridə qalmış sahələrdən biri səhiyyə sistemi idisə, bütün tibb ocaqları köhnəlikdən miskin vəziyyətə düşmüşdüsə, müasir avadanlıqlar səhiyyəmizdən çox uzaqlarda qalmışdırsa, müstəqilliyimizin bərpasından sonra bütün bunların da bərpasını gördük. Ən ucqar kəndlərimizdən tutmuş şəhərlərimizədək səhiyyənin inkişafı diqqətdə saxlanıldı. İnsanların sağlamlığı ön plana çıxarıldı. Müstəqil dövlətimiz öz vətəndaşlarının sağlamlığını bütün digər məsələlərdən üstün tutdu. Çünki onlar sağlam olardılarsa, cəmiyyətimiz inkişaf edə, müstəqil dövlət quruculuğumuz irəliləyə bilərdi. Buna görə də insan sağlamlığı dövlətimizin siyasi xəttinin əsasını təşkil etdi.

Bu gün ölkəmizdə səhiyyənin inkişafı hər bir tibb ocağında açıqca görünür. Əvvəlki illərdə hansısa bir xəstəlik üçün xarici ölkələrə üz tutan vətəndaşlarımızın bu gün tibb ocaqlarında yüksəkixtisaslı həkimlər tərəfindən müayinə-müalicəsi aparılır və uğurlu nəticələr əldə olunur. İndi ölkəmizin səhiyyə ocaqlarında dünyanın ən müasir tibbi aparat və avadanlıqları var ki, onların əksəriyyəti keçmiş SSRİ ölkələrində hələ də yoxdur. Yaradılan şərait həkim və tibb işçiləri qarşısında böyük məsuliyyət qoyur. Onlar dövlətimizin bu sahəyə göstərdiyi diqqət və qayğıya öz əməli işləri ilə cavab verməyə çalışırlar.

## Tibb işçilərimiz pandemiya dövründə

Biz onların vəzifələrini böyük məsuliyyətlə həyata keçirdiklərinin, gecəli-gündüzlü böyük məsuliyyətlə çalışdıqlarının pandemiya dövründə şahidi olduq. Həkim və tibb işçilərimiz, sözün həqiqi mənsında, həmin dövrdə əllərinə "silah" alıb bu gözəgörünməz müharibə ilə mübarizə apardılar. Şahidi olduq ki, onlar günlərlə evlərinə gedə bilmədilər, günün bütün saatlarını çalışdıqları xəstəxanalarda insanların həyatda qalmasına həsr etdilər. Şahidi olduq ki, onları evlərində azyaşlı övladları gözləyir, lakin onlar evə getməyə vaxt tapmırdılar. Çünki xəstəxanalardakı nəfəs darlığı yaşayan insanların hər birinin son ümid yeri həkimlər idi. Onların gözləri həkimlərin gözlərində idi, bu gözlər ümid diləyirdi, şəfa istəyirdi...

Günlərlə, aylarla tibbi maskanı çıxara bilməyən həkim və tibb işçilərimizin üzündə onun iz saldığının şahidi olduq. İzlər sonralar da onların üzlərində qalmışdı. Həmin görüntülərin özü bu peşə sahiblərinin öhdələrinə düşən işi böyük məhəbbətlə yerinə yetirdiklərinə, insanlara olan sevgisinə, onların yaşaması üçün mücadilə aparmalarına bariz nümunə idi.

Biz onlarla həkim və tibb işçilərimizi itirdik pandemiya dövründə. Onlar "Covid-19"dan əziyyət çəkən xəstələri bu bəladan xilas edərkən özləri bu bəlaya düçar oldular. Onları xilas etmək mümkün olmadı. Günlərlə bu xəstəliyi daşıyan insanların arasında olmaları həyatlarını sona yaxınlaşdırdı. İnsanlara şəfa verənlər iş başındaca həyatlarını itirdilər.

Həkim və tibb işçilərimizin pandemiya dövründə fəaliyyətləri təqdirəlayiqdir. Onların hər biri həmin ağır dövrlərdə əllərindən gələni əsirgəmədi. Bu əsnada peyvəndləmə işlərini uğurla, sistemli şəkildə həyata keçirən həkim və tibb işçilərinin də fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Onlar arasında bu iş üçün ayrılmış xüsusi tibb ocaqlarında dayanmadan çalışanlar da var idi, səyyar şəkildə şəhərbəşəhər, kəndbəkənd gəzib vəzifəsini yerinə yetirənlər də.

## Tibb işçilərimiz İkinci Vətən Müharibəsi dövründə

Bu gözəgörünməz müharibə bitməmiş ölkəmizdə İkinci Vətən Müharibəsi başladı. 2020-ci ilin 27 sentyabrında Qarabağa yolları igid oğullarımız. Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri ilə yanaşı, yüzlərlə könüllülər də vardı onların arasında. Həmin könüllülər içərisində isə həkimlərimiz vardı. Onlar gülləbaran yağışı altında yaralılarımızın köməyinə çatır, onların yaralarına şəfa bəxş edirdilər. Öz vəzifə borcunu yerinə yetirərkən yaralanan və həyatını itirən neçə-neçə həkim və tibb işçilərimiz də oldu.



Müharibə dövründə çalışdıqları səhiyyə ocaqlarında da gecəli-gündüzlü vəzifələrini layiqincə yerinə yetirən həkimlərimiz var idi. Hər gün cəbhədən gətirilən ağır yaralılarımızı gecənin yarısında da, sübh çağında-günün bütün saatlarında dərhal əməliyyatlara alıb onları həyata qaytardılar, təcili müdaxiləlləri ilə onların orqanlarının itirilməsinin qarşısını aldılar. Həkimlərimizin bu əməkləri unudulmazdır.

Əgər əsgər əlində silah cəbhədə döyüşürdüsə, həkimlərimiz də əllərindəki tibbi alətlərlə həm ön, həm də arxa cəbhədə döyüşürdülər. Hər bir Azərbaycan vətəndaşı kimi, onların da tarixi Zəfərimizdə böyük payları var.

Həkim və tibb işçlərimiz arasında Qarabağdan olanlar da var. Onlar da digər həmyerliləri kimi illərlə köçkün, qaçqın, didərgin statusu ilə yaşayıblar. Onlar da Qarabağın ayrı-ayrı rayonlarında, kəndlərində qurulu evlərini, həyət-bacalarını qoyub zorla dədəbaba ocaqlarından çıxarılanlardandır. Onlar arasında da doğma torpaqlarına bir daha qayıtmadan gözlərini bu dünyaya yumanlar oldu.

Qarabağdan olan tibb işçilərindən artıq o torpaqlara qayıdanlar var. Dövlətimizin azad edilmiş torpaqlarda apardığı quruculuq işləri ilə yaxın gələcəkdə onların hamısı doğma yurduna qayıdacaq, üzləri güləcək. Necə ki, Qarabağ Zəfəri ilə qürur duydular, yaxında evlərinə dönmələri ilə ikinci Zəfəri yaşayacaqlar.

## Bir həkim yüzlərlə sağlam insandır

Bu gün həkimlərimizdən söhbət açdıq. 17 iyunda bayramlarını qeyd edən tibb işçilərindən. Bu gün onlarındır, böyük bir ordu olan tibb işçilərimizin. Hər birimizin ümid yeri, şəfa diləyimiz olan tibb işçilərinin. Gecə-gündüz müraciət etdikdə hətta evlərinin qapılarını belə üzümüzə açan, nazımızı çəkən, bizə min bir nəvazişlə yanaşan, yeri gələndə əlləri qanımıza bulaşan, yaralarımıza toxunan, lakin bundan heç də narahat olmayan tibb işçilərimizin. Həqiqətən də onlar arasında öz peşəsinin əsl sahibi olanlar saysızdır. Bələlərinin haqqı hər birimizin üstündə çoxdur.



Onların fədakar əməyi dövlətimiz tərəfindən daim qiymətləndirilir. Həkim və tibb işçiləri yüksək adlara, mükafatlara layiq görülür. Tibb müəssisələrinin maddi-texniki bazası gücləndirilir, səhiyyə ocaqlarına yeni tibbi texnologiyalar tətbiq olunur. Kadr islahatları və aparılan digər tədbirlər onu dünyanın qabaqcıl ölkələrinin səviyyəsinə çıxarmağa imkan yaradıb.

Vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təmin olunması, onların müalicəsi, regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, xüsusilə uşaqların bütün tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsində aparılan islahatların əsas istiqamətlərini təşkil edir. Ölkəmizdə 600-dən artıq yeni tikilmiş və ya əsaslı təmirdən çıxmış tibb müəssisəsi müasir avadanlıqlarla təmin olunub.

Heydər Əliyev Fondunun diabetli, talassemiyalı xəstələrə göstərdiyi qayğı və onların müalicəsinin təşkilində, qanvermə aksiyalarının keçirilməsində, ana və uşaqların sağlamlığının qorunmasının yaxşılaşdırılmasında gördüyü işlər də böyük razılıq və rəğbət doğurur. Bütün bunlar isə səhiyyənin nüfuzunu artırıb, həkimlərə qarşı böyük inam hissini formalaşdırıb.

Həkimlərin fəaliyyətinin daha da səmərəliliyi üçün onlar xarici ölkələrdə təcrübə, peşə kurslarına göndərilirlər. Müsqəqilliyimizin bərpasından sonra tibb işilərinin əmək haqları dəfələrlə artırılıb. Elə iki il öncə həkimlərin əmək haqlarına xüsusi artımların əlavə edilməsini müharibədən yeni çıxmış bir ölkənin bu sahəyə göstərdiyi böyük dəyər kimi qiymətləndirildi.

Bir həkim yüzlərlə sağlam insandır. Nə qədər yerində söylənmiş bir fikirdir. Bəzən yüz nəfər bir yerə yığışıb bir işin öhdəsindən gələ bilmədiyi təqdirdə, bir həkim yüzlərlə insana öz qəlbindən, əllərindən şəfa bəxş edir. Belə isə onları qorumaq da, onlara böyük dəyər vermək, hörmətlə yanaşmaq da hər birimizin borcudur.

Bayramınız mübarək, əziz tibb işçiləri. Sizə çətin və məsuliyyətli işinizdə uğurlar arzulayır, həmişə sizə ümid edən, şəfa diləyən insanlara sağlamlıq bəxş etməyinizi, bununla qürur duymağınızı arzulayırıq.

***Mətanət Məmmədova***

# Blok imtahanında 100 balı keçməyən abituriyentləri nə gözləyir?

***"A**li təhsil müəssisələrinə qəbulun ikinci mərhələsi - blok imtahanı nəticəsində 100-dən az bal toplayan abituriyentlərin vəziyyəti çətindir. İctimaiyyətin diqqətində olan bu problem abituriyentin imtahan nəticəsinin təkcə balla deyil, həm də gələcək təhsil hüququ ilə necə sıx bağlı olduğunu göstərir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.*

Kamran Əsədov sözlərinə belə davam edib: "Dövlət İmtahan Mərkəzi tərəfindən tətbiq edilən qaydalara əsasən, abituriyentlər II mərhələdə (blok imtahanı) 50 baldan yuxarı, lakin 100 baldan az topladığı halda, o ixtisas qrupu üzrə məhdud sayda ixtisas





seçimi hüququ əldə edirlər. Bu, birbaşa olaraq "Ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları" ilə tənzimlənir (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 fevral tarixli, 54 nömrəli qərarı).

2024-cü il üzrə qəbul statistikasına əsasən, II mərhələdə iştirak edən 91 180 abituriyentin təxminən 26%-i - yəni 23 700 nəfəri blok üzrə 100 bal baryerini keçə bilməyib. Onlardan 9 300 nəfər isə ümumiyyətlə 50-dən aşağı nəticə göstərərək müsabiqəyə buraxılmayıb. Lakin 14 400 abituriyent 50-100 bal aralığında nəticə göstərdiyindən müəyyən ixtisaslar üzrə seçim hüququ əldə edib. Bu məhdud ixtisaslar əsasən regional universitetlərdə, az tələbat olan sahələrdə və ödənişli əsaslarla təqdim olunur. Beləliklə, blok üzrə 100 bal tələbi universallıq deyil, nisbi keçid meyarı kimi çıxış edir.

Ədalət baxımından bu sistemin bir sıra üstünlükləri var. Belə ki, minimum savad və hazırlıq səviyyəsini təsdiqləyən balın tətbiqi ali məktəblərin akademik keyfiyyətini qorumağa yönəlib. Bu, xüsusən tibb, hüquq və mühəndislik kimi yüksək ixtisaslaşma tələb edən sahələr üçün vacibdir. Lakin digər tərəfdən, blok imtahanı nəticəsinin bu qədər həlledici olması, xüsusilə imtahanda emosional gərginlik yaşayan və ya texniki səbəblərdən potensialını tam göstərə bilməyən abituriyentlər üçün ədalətsiz nəticələrə səbəb olur. 98 və ya 99 bal toplayan, lakin 100 baryerini keçə bilməyən onlarla abituriyent faktiki olaraq daha geniş ixtisas seçimindən məhrum olur.

Dünya təcrübəsində isə qəbul meyarları daha çevik və kompleks şəkildə qurulur. Məsələn, Almaniyada yalnız test nəticəsi ilə deyil, məktəb qiymətləri, motivasiya məktubu, müsahibə və sosial aktivlik də qiymətləndirmə meyarları arasında yer alır. Türkiyədə isə YKS imtahanının ikinci mərhələsi olan AYT-dən 180 bal toplamaq ali təhsil üçün əsas şərtdir, lakin müəyyən ixtisaslara 150-179 bal aralığında da qəbul mümkündür. Bu sistemlərdə tələbəyə alternativ yollar, düzəliş imkanları və çevik müraciət modelləri təqdim olunur.

Azərbaycanın mövcud modelində 100 bal şərti tətbiq olunsa da, 50-100 bal aralığına daxil olan abituriyentlər üçün "məhdud ixtisas seçimi" imkanı nisbi bir keçid yoludur. Bu abituriyentlər əsasən iqtisadi ixtisaslar, kənd təsərrüfatı kimi ixtisasları və bəzi regional universitet proqramlarını seçə bilirlər. Beləliklə, sistem gəncin tamamilə təhsildən kənarda qalmasının qarşısını alır, lakin onun seçimini ciddi şəkildə məhdudlaşdırır.

Bu vəziyyətdə dəyişiklik labüddür. Minimum blok balı anlayışı daha çevik tətbiq olunmalı, müxtəlif ixtisas qrupları üçün fərqli keçid balları müəyyənləşdirilməli, sosial, regional və iqtisadi amillər nəzərə alınmalıdır. Həmçinin, qəbul prosesinə yalnız test nəticəsi ilə deyil, məktəbdəki akademik göstəricilər, əlavə bacarıqlar və şəxsi motivasiyanı əks etdirən komponentlər də daxil edilməlidir. Bu zaman təhsil daha ədalətli və insan mərkəzli bir sistemə çevrilə bilər.

Nəticə olaraq, 50-100 bal aralığında nəticə göstərən abituriyentlərin imkanları azalsa da, tamamilə məhdudlaşdırılmır. Bu mexanizm, hər nə qədər nisbi ədaləti təmin etsə də, təhsilin ümumi məqsədi olan bilikli, yaradıcı və fərdiyyətçi gənclərin formalaşdırılmasına hələ tam xidmət etmir. Dəyişməli olan budur: qiymətləndirmə bir imtahanla deyil, çoxşaxəli və fərdi yanaşmalarla həyata keçirilməlidir. Bu halda, hər gənc öz potensialını reallaşdırmaq üçün azad seçim və inkişaf imkanına sahib olar".

***Ayşən Vəli***

# Şuşa Bəyannaməsi - qardaşlığın yeni tarixi mərhələsi

***D**örd il öncə - 2021-ci ilin 15 iyununda iki qardaş ölkənin dövlət rəhbərləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Şuşada müttəfiqlik münasibətləri haqqında Bəyannaməyə imza atdılar. Bu Bəyannamə Azərbaycan və Türkiyə dövlətləri arasında bütün sahələrdə inteqrasiyanın nümunəsidir.*



***Bəhram ŞİRİYEV, Əməkdar müəllim***

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir. Hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş Bakı və Ankaranın başçılığı altında yeni regional geosiyasi konfiqurasiyanın qurulmasının başlanğıcıdır. Bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması və bundan sonra Azərbaycan-Türkiyə tandeminin rəhbərliyi altında davam edəcək yeni regional düzənin başlanğıcı deməkdir.

Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi iki ölkə arasında münasibətlərdə inqilabi gerçəklikdir. 15 iyun 2021-ci il tarixindən başlayaraq Bakı və Ankara hərbi-siyasi, iqtisadi sahələrdə müttəfiqliklərini rəsmi şəkildə elan etdi. Bəyannamədə diqqəti çəkən ən vacib məqamlardan biri hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Burada qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birini qoruyacaqlar.

Şuşa Bəyannaməsi ilə Türkiyə açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi halında, ordu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Bundan sonra bütün qonşu dövlətlər və dünya ictimaiyyəti bilməlidir ki, Azərbaycanın dövlət suverenliyini təhdid etmək fikrinə düşənlər yeni regional hərbi-siyasi blokla qarşılaşacaqlar.

İki qardaş ölkə həm də iki dövlətin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyinin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsinin təşviq olunması ilə bağlı da razılığa gəldi. Hər iki ölkənin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin həyata keçirilməsinə dair razılıq əldə olunması Azərbaycan və Türkiyə arasında münasibətlərin necə sıx və prinsipial olduğunun göstəricisidir.

Müqavilədə digər vacib məqamlardan biri iqtisadi-nəqliyyat məsələləri ilə bağlıdır. Azərbaycan və Türkiyə arasında imzalanan Bəyannamədə xüsusilə tarixi türk torpağı Zəngəzur dəhlizinin adının hallanması tarixi gerçəkliyi və hədəfləri göstərən mühüm amildir. Bəyannamədə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialının daha da inkişafı, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələləri yer alır. Sənəddə xüsusilə vurğulanır ki, Türkiyə ilə Azərbaycanı və Azərbaycanın qərbdəki bölgələriylə Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhlizin (Zəngəzur dəhlizi) açılması və onun davamı olaraq Naxçıvan-Qars dəmir yolunun inşası iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə əhəmiyyətli dərəcədə kömək edəcək.

Bəyannamənin imzalanması ilə Azərbaycan və Türkiyə, həm də bir-biri ilə ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsinə nail olmuşdur.

Həmçinin, Bəyannamədə Azərbaycan və Türkiyənin xarici siyasət davranışları ilə bağlı müddəa da yer almışdır. Tərəflər öz milli maraq və mənafelərinin təmin edilməsinə yönəlmiş müstəqil xarici siyasət aparırlar. Sənədə əsasən, beynəlxalq münasibətlərin inkişafı, yerli, bölgə və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli üçün birgə səylər göstərirlər.

Beləliklə, dörd il öncə imzalanmış Şuşa Bəyannaməsi öz əhəmiyyətinə görə region ölkələrinin, o cümlədən Azərbaycan-Türkiyə əməkdaşlığının dərinləşməsinə və işbirliyinin genişlənməsinə xidmət edir. Bu Bəyannamə sözsüz ki, gələcək dərsliklərə yazılacaq mühüm tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu.

# Riskli hamiləlik:

## Nə vaxt yataq rejiminə ehtiyac var?





ARAŞDIRMA

***Bəzi hamiləliklərdə ana və dölün sağlamlığını qorumaq üçün hamilə qadına ciddi yataq rejimi tövsiyə olunur. Bu, sadəcə istirahət deyil, həkimin göstərişi ilə fiziki aktivliyin kəskin şəkildə azaldılması və bəzən tamamilə yataqda qalmaq deməkdir. Belə vəziyyətlər adətən riskli hamiləliklərə aiddir. SİA mövzu ilə bağlı araşdırma aparıb. Aşağıda yataq rejiminin əsas səbəbləri sadə və aydın şəkildə izah olunur:***

**1. Erkən doğum riski**

Əgər uşaqlıqda sancılar başlamışsa, ya da uşaqlıq boynu (serviks) erkən açılırsa, bu, vaxtından əvvəl doğuş təhlükəsidir. Belə hallarda qadına yataq rejimi tövsiyə olunur ki, döl mümkün qədər uzun müddət ana bətnində qala bilsin.

**2. Servikal yetməzlik**

Serviksin (uşaqlıq boynunun) zəifliyi nəticəsində o, doğuş vaxtı çatmadan genişlənə bilər. Bu, aşağı düşmə və ya erkən doğuşla nəticələnə bilər. Yataq rejimi ilə yanaşı, bəzi hallarda serviksə tikiş də qoyulur (serklaj).

**3. Plasentanın problemləri**

* Plasenta previa - plasentanın uşaqlıq boynunu qismən və ya tam bağlaması.

* Plasenta dekolmanı - plasentanın vaxtından əvvəl uşaqlıq divarından qopması.

Bu hallarda hərəkət qadının və dölün həyatı üçün təhlükəli ola bilər, buna görə yataq rejimi vacibdir.

**4. Yüksək təzyiq və preeklampsiya**

Hamiləlikdə yüksək qan təzyiqi və sidikdə zülal itkisi varsa (preeklampsiya), bu, həm ananın, həm də dölün həyatını riskə ata bilər. Yataq rejimi qan təzyiqini bir qədər sabit saxlamağa kömək edə bilər.

**5. Çoxdöllü hamiləlik (əkiz, üçəm və s.)**

Belə hamiləliklərdə uşaqlıq daha çox yüklənir və vaxtından əvvəl doğuş riski artır. Bəzi hallarda həkimlər erkən mərhələdən yataq rejimi tövsiyə edirlər.

**6. Qanaxma**

Hamiləlik zamanı səbəbi bilinməyən qanaxmalar varsa, qadın tam müşahidə altına alınır və çox vaxt yataq rejimi vacib hesab olunur.

**7. Dölün inkişafında geriləmə**

Əgər körpə ana bətnində normadan az inkişaf edirsə, bəzi hallarda yataq rejimi qan dövranını yaxşılaşdırmaq və dölə oksigen axınını artırmaq məqsədilə tətbiq olunur.

### Nəzərə alınmalı məqamlar:

* Yataq rejimi həmişə eyni deyil. Bəzi hallarda qadına sadəcə daha çox uzanmaq, bəzilərində isə tam hərəkətsiz qalmaq tapşırılır.

* Uzunmüddətli yataq rejimi əlavə problemlər yarada bilər, məsələn: əzələ zəifliyi, qəbizlik, qan dövranı pozğunluqları, psixoloji sıxıntılar. Ona görə bu rejim yalnız ciddi ehtiyac olduqda tətbiq edilir və həkim nəzarətində olmalıdır.

**8. Keçmişdə düşük və ya erkən doğuş təcrübəsi**

Əvvəlki hamiləliklərdə bir neçə dəfə ardıcıl düşük və ya erkən doğuş baş veribsə, bu dəfə də bənzər risk ola bilər. Belə qadınlar bəzən "təhlükəli hamilə" sayılır və həkim preventiv (önləyici) məqsədlə yataq rejimi tövsiyə edə bilər.

**9. Dölün suyu normadan azdır (oligohidramnion)**

Döl ətrafı maye miqdarı az olduqda bəzi həkimlər anaya mümkün qədər uzanmağı və maye qəbulunu artırmağı tövsiyə edirlər. Bu, suyun miqdarının sabit qalmasına və dölün təhlükəsizliyinə yardımçı ola bilər.

**10. Uşaqlığın forması və ya quruluş pozğunluqları**

Bəzi qadınların uşaqlığında doğuşdan gələn anomaliyalar olur (məsələn, ikibuynuzlu uşaqlıq). Belə vəziyyətlərdə uşaqlıq dölü normal saxlaya bilmədiyi üçün, yataq rejimi ilə təzyiq və gərginliyin azalmasına çalışılır.

**11. İmmunitetlə bağlı problemlər və ya bəzi autoimmün xəstəliklər**

Bəzi qadınların orqanizmi hamiləliyi "xarici bədən" kimi qəbul edir və döllə bağlı problemlər yarana bilər. Bu kimi hallarda, hamiləliyi qorumaq üçün xüsusi müalicə ilə yanaşı, yataq rejimi də tövsiyə oluna bilər.

**12. Hamiləliklə bağlı ciddi ağrılar və ya spazmlar**

Əgər səbəbi tam müəyyən olunmayan, lakin təhlükəli ola biləcək qarın ağrıları və ya sancılar varsa, qadına istirahət və yataq rejimi tövsiyə edilə bilər ki, vəziyyət pisləşməsin.

* Yataq rejimi aktiv müşahidə tələb edir. Ana tez-tez həkim müayinəsində olmalı, qan təzyiqi, uşaqlıq vəziyyəti və dölün ürək döyüntüləri izlənməlidir.

* Mental və emosional vəziyyət də nəzərə alınmalıdır. Uzun müddət yataqda qalmaq qadını depressiyaya və ya narahatlığa sala bilər. Belə hallarda psixoloji dəstək faydalı ola bilər.

* Ər-arvad və ailə dəstəyi çox önəmlidir. Hamilə qadının təkcə fiziki deyil, emosional rahatlığı da hamiləliyin sağlam davamı üçün vacibdir.

### Bu halların qarşısı necə alınmalıdır:

1. Hamiləlikdən əvvəl tibbi müayinə (prekonsepsiya baxışı)

* Uşaqlıq, yumurtalıq, hormonlar və ümumi sağlamlıqla bağlı problemlər varsa, onlar öncədən aşkarlanmalı və müalicə olunmalıdır.

* Xüsusilə əvvəllər düşük, erkən doğuş, şəkər, təzyiq və ya autoimmün xəstəlik keçirmiş qadınlar hamiləlikdən əvvəl həkimlə məsləhətləşməlidir.

**2. Bədən çəkisinin normada saxlanması**

* Həm çox artıq çəki, həm də arıqlıq hamiləlik risklərini artırır.

* Çəki balansda olduqda təzyiq problemi, şəkər, və erkən doğuş riski azalır.

**3. Pis vərdişlərdən uzaq durmaq**

* Siqaret, spirtli içki və narkotik maddələr uşaqlıq içində inkişafı poza bilər, plasenta problemləri və düşüklər yarada bilər.

**4. Müntəzəm ginekoloji yoxlamalar**

* Hər qadın ildə ən azı bir dəfə qadın həkiminə (ginekoloqa) getməlidir.

* Servikal problemlər (uşaqlıq boynu zəifliyi), infeksiyalar, kistlər və ya anadangəlmə problemlər vaxtında aşkar edilə bilər.

**5. Məhdud sayda süni uşaqsalma və ya abort**

* Tez-tez edilən abort və ya uşaqlıq müdaxilələri serviksə ziyan vuraraq gələcəkdə servikal yetməzlik yarada bilər.

**6. İnfeksiyaların qarşısını almaq**

* Sidik yolları, vajinal və ya sistemli infeksiyalar düşüklərə və ya vaxtından əvvəl doğuşlara səbəb ola bilər.

* Hamiləlikdən əvvəl və ya hamiləliyin əvvəlində infeksiyalar yoxlanmalıdır.

**7. Düzgün qidalanma və vitaminlər**

* Fol turşusu hamiləlikdən əvvəl və ilk aylarda qəbul edilsə, dölün sinir sisteminin düzgün formalaşmasına kömək edir.

* Dəmir, kalsium və digər vitamin balansı da vacibdir.

**8. Stresin azaldılması və psixoloji rahatlıq**

* Stress uşaqlıqda spazmlara səbəb ola bilər.

* Ailə və sosial dəstək, rahat mühit hamiləliyin sağlam keçməsi üçün çox önəmlidir.

**9. Ağır fiziki fəaliyyətlərdən və travmalardan qorunmaq**

* Ağır yük qaldırmaq, uzun müddət ayaq üstə işləmək və ya qəfil hərəkətlər risk yarada bilər.

* Xüsusilə əvvəlki hamiləliyi problemli olmuş qadınlar buna daha çox diqqət etməlidir.

Hamiləliyin sağlam keçməsi təkcə hamiləlik dövründə deyil, ondan əvvəlki həyat tərzindən də asılıdır. Sağlam həyat tərzi, vaxtında tibbi nəzarət və risklərin qabaqcadan qiymətləndirilməsi bir çox problemlərin qarşısını ala bilər.

Hamiləlik dövründə dikdaban ayaqqabı geyinmək bir çox qadın üçün estetik və vərdişlə bağlı seçim olsa da, bu dövrdə orqanizmdə baş verən dəyişiklikləri nəzərə alaraq, bu seçim bəzi təhlükələrə yol aça bilər.

### Hamiləlikdə dikdaban geyinməyin mümkün təsirləri və tövsiyələri:

**1. Bədən tarazlığının dəyişməsi**

* Hamiləlik zamanı qarın böyüyür, ağırlıq mərkəzi irəli çəkilir.

* Dikdaban ayaqqabı bu tarazlığı daha da pozur, yıxılma riskini artırır.

* Xüsusilə ikinci və üçüncü trimestrdə bu risk daha da çoxalır.

**2. Bel və onurğa ağrıları**

* Hamiləlik özü onurğaya və omba bölgəsinə təzyiq yaradır.

* Dikdabanlar isə bu təzyiqi artırır, bel ağrılarının daha tez-tez və güclü hiss olunmasına səbəb olur.

**3. Ayaq və baldır ağrıları**

* Hormonlar səbəbindən əzələlər və bağlar yumşalır.

* Dikdaban ayaqqabılar baldır əzələlərini gərir və spazmlara səbəb ola bilər.

* Ayaqlarda şişkinlik və varikoz damar problemləri olan qadınlar üçün bu daha təhlükəlidir.

**4. Damaq (plantar fasciit) və daban ağrısı**

* Ayaqların alt hissəsinə qeyri-bərabər təzyiq düşür, bu isə daban ağrısı və yastıayaq kimi problemlərə səbəb ola bilər.

**5. Düşmə və travma riski**

* Dikdaban ayaqqabıda büdrəmək, ayağı burxmaq və ya yıxılmaq ehtimalı yüksəkdir.

* Hamiləlikdə hər hansı yıxılma həm ana, həm də körpə üçün təhlükəli ola bilər.

### Tövsiyələr:

Orta hündürlükdə daban (2-4 sm) - Ən uyğun seçimdir. Nə tam düz, nə də çox hündür olmamalıdır.

Dabanı enli və stabil olan ayaqqabılar - Ayağın tarazlığını saxlamaqda kömək edir.

Ortopedik və rahat içlikli ayaqqabılar - Ayaq altını dəstəkləyir, yorğunluğu azaldır.

Əgər mütləq dikdaban geyinmək lazımdırsa (məsələn, tədbirə görə):

* Qısa müddətlik geyinilməlidir

* Uzun müddət ayaq üstə qalmaqdan çəkinilməlidir

* Sonra rahat ayaqqabıya keçmək vacibdir

Hamiləlikdə dikdaban ayaqqabı geyinmək mümkün olsa da, təhlükəsiz və sağlam seçim deyil. Həm ananın rahatlığı, həm də dölün təhlükəsizliyi üçün rahat, stabil və ortopedik ayaqqabılar tövsiyə olunur.

***Ayşən Vəli***

# Avropanın media casuslarının məhkəməsində yeni faktlar üzə çıxdı

Azərbaycan dünya miqyasında azad, demokratik dövlətlər sırasında ön sırada olan dövlətlərdəndir. Ölkəmizdə söz və mətbuat azadlığının təmin olunması istiqamətində geniş və əhatəli işlər görülüb, qanunlar qəbul edilib, Prezident Fərman və Sərəncamları imzalanıb. Məhz dövlətin dəstəyi ilə KİV-lərin müasir dövrün tələblərinə uyğun olaraq fəaliyyət göstərmələrinə geniş imkanlar yaradılıb. Ulu Öndərimiz Heydər Əliyevin xeyrli, gərəkli media siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev KİV-lərin fəaliyyətinin genişlənməsinə və peşəkarlıq səviyyəsinin yüksəlməsinə hər cür dəstəyini göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı və MEDİA Agentliyinin yaradılması ölkəmizdə media sahəsində islahatların daha sürətlə aparılmasına və şaxələndirilməsinə yeni imkanlar yaradır. Təəssüflər olsun ki, dövlətin yaratdığı şərait və imkandan sui-istifadə hallarına yol verilir. Yazdığı təhqiredici yazıya, işlətdiyi böhtanlara görə, məsuliyyətə cəlb edilməsində humanistliyə yol veriləcəyini anlayan bəzi jurnalistlər bu istiqamətdə sərhəd tanımırlar. Vaxtaşırı təhqirlərlə dolu yazılar yazır, internet TV-lərdə şər və böhtan xarakterli fikirlər yayırlar.











USAID FROM THE AMERICAN PEOPLE




Dəhşətlisi ondan ibarətdir ki, onları bəzən siyasi partiya funksionerləri istiqamətləndirirlər. Dəfələrlə sübuta yetirilib ki, AXCP sədri Əli Kərimlinin, Milli Şuranın rəhbəri Cəmil Həsənlinin və digərlərinin sifarişləri əsasında bəzi jurnalistlər, media orqanları, internet TV-lər dövlətin müsbət imicini ləkələmək üçün qarayaxma kampaniyası təşkil edirlər. Xarici məkrli qüvvələrin maddi və mənəvi dəstəyinə arxalanan "Abzas Media", "Toplum" TB, "Meydan"TV kimi qurumlar Azərbaycanda görülən möhtəşəm işlərə kölgə salmaq, insanlar arasında çaşqınlıq yaratmaq üçün hər cür çirkin vasitə və üsullardan istifadə edirlər. Təbii ki, qarşılığında xarici fondlardan milyon dollarla maliyyə vəsaitləri alırlar. Təbii qanundankənar maliyyə vəsaiti almaq cinayət məsuliyyəti yaradır.




## Məhkəmədən bağışlanmalarını xahiş etdilər

Söz yox ki, cinayət yolu tutanlar qanunvericiliyin tələbinə uyğun olaraq məsuliyyətə cəlb olunurlar. 2023-cü il noyabrın 21-də "Abzas Media"nın direktoru Ülvi Həsənli və baş redaktoru Sevinc Vaqifqızı (Abbasova), noyabrın 23-də direktor müavini Məhəmməd Kekalov, dekabrın 1-də saytın əməkdaşı Nərgiz Absalamova, dekabrın 13-də jurnalist Hafiz Babalı, daha sonra saytın əməkdaşı Elnarə Qasımova barəsində qrup halında qaçaqmalçılıq ittihamı ilə həbs qətimkan tədbiri seçilib.Onlar barəsində ilkin olaraq Cinayət Məcəlləsinin 206.3.2-ci (qrup halında qaçaqmalçılıq) maddəsi ilə ittiham irəli sürülüb. İstintaq dövründə Cinayət Məcəlləsinin bir sıra, o cümlədən 193-1.3.2-ci maddəsi (Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma, xeyli miqdarda törədildikdə) üzrə yekun ittiham verilib.

Həbs olunan media casuslarının cinayət əməlləri istintaq orqaları tətəfindən sübuta yetirilərək, baxılması üçün məhkəməyə göndərilib. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rasim Sadıxovun sədrliyi ilə keçirilən məhkıəmə prosesində "Abzas Media"nın direktoru Ülvi Həsənli, baş redaktoru Sevinc Vaqifqızı, direktor müavini Məhəmməd Kekalov, jurnalistlər - Hafiz Babalı, Nərgiz Absalamova, Elnarə Qasımova və iqtisadçı Fərid Mehralızadə əməllərini etiraf etdilər və məhkəmədən onların bağışlanmasını xahiş etdilər. Təbii ki, xahişin nəzərə alınması məhkəmənin müstəsna hüququna aid olan məsələdir. Lakin prokuror Ülvi Həsənlin 12 il, Sevinc Vaqifqızının 11 il, Məhəmməd Kekalovun 11 il, Hafız Babalı 12 il, Fərid Mehralızadə 12 il, Elnarə Qasımova 11 il, Nərgiz Absalamovanın 11 il azadlıqdan məhrum edilməsini istəyib. İyunun 10-da davam etdirlən məhkəmədə vəkillər müdafiə çıxışı ediblər, jurnalist Hafiz Babalı isə son sözünü deyib. Məhkəmə iyunun 20-də davam etdiriləcək.

## Cinayət cəzasız qala bilməz

Faktlara istinadən demək olar ki, heç kim, o cümlədən jurnalist adına iddia edənlər qanunsuz olaraq istintaqa çağırılmırlar. Hər bir kəs törətdiyi əmələ görə istintaqa cəlb olunaraq toplanmış materiallar əsasında məhkəmə qərarı verilir. Heç kim toxunulmaz deyil və jurnalist adından istifadə edərək, qanunlara meydan oxumaqda yolverilməzdir. Bu yaxınlarda "Abzas Media"nın əməkdaşları kimi "Meydan" TV-nin əmıəkdaşları da qeyri-qanuni fəaliyyətlə məşğul olduqlarına görə, məsuliyyətə cəlb olunublar. Xətai rayon Məhkəməsinin qərarı ilə "Meydan TV" əməkdaşları Ramin Cəbrayılzadə (Ramin Deko), Aynur Qəmbərova (Elgünəş), Aytac Əhmədova (Tapdıq), Aysel Umudova, Xəyalə Ağayeva, Natiq Cavadlı, Ülvi Tahirov, Aysel Umudova və Aytac Əhmədova barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

"Toplum TV"-nin xaricdən maliyyələşən əməkdaşlarına qarşı da istintaq orqanları tərəfindən cinayət işi qaldırılıb. İstintaq araşdırması zamanı "Toplum TV"nin təsisçisi Ələsgər Məmmədli, redaktor Müşfiq Cabbarov, "Demokratik Təşəbbüslər İnstitutu"nun rəhbəri Akif Qurbanov, Demokratik Təşəbbüslər İnstitutunun əməkdaşı Əli Zeynalov, "III Respublika" Platformasının qurucu heyət üzvü Ruslan İzzətli, Ramil Babayev, İlkin Əmrahov, Şahnaz Bəylərqızı məsuliyyətə cəlb olunublar. Onlara qarşı Cinayət Məcəlləsinin 206.3.2 (qaçaqmalçılıq - qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə cinayət işi açılıb.

İctimaiyyət üçün açıqlanan məlumatda bildirilir ki, "Abzas Media", "Toplum" TB, "Meydan TV kimi media orqanları ABŞ-ın "Beynəlxalq İnkişaf Agentliyi" (USAID), "Milli Demokratiya Fondu" (NED), "Avropa Demokratiyaya Yardım Fondu" (EED), "Internews", "FreedomNow", "Qlobal Araşdırmaçı Jurnalistika Şəbəkəsi" (Global Investigative Journalism Network), "Amerika Beynəlxalq Təhsil Şurası" (American Councils for International Education), Çexiyanın "Praqa Vətəndaş Cəmiyyəti Mərkəzi" (PCSC), "People in Need" (PIN), "Avropa İttifaqı Müstəqil Media üçün" proqramı (EU4 İndependent Media), "Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu" (EPCSF), "Niderland Helsinki Komitəsi", "Norveç Helsinki Komitəsi", "Avropa Jurnalistika Fondu" (Journalizmfund Europe), "Yeni Demokratiya Fondu" (New Democracy Fund), "Forum 2000" və "German Marşal" Fondu tərəfindən böyük məbləğdə pullar alıblar. Sual olunur Azərbaycan cəmiyyətində tanınmayan, ümumilikdə 10-15 oxucusu olmayan sayt əməkdaşlarına, onu idarə edənlərə böyük məbləğdə maliyyə yardımları ödəməyə nə ehtiyac var? Heç şübhəsiz ki, tanınmış, geniş oxucu auditoriyası olan KİVlərə maliyyə vəsaitləri təklif edilə bilməzdi. Çünki özünə hörmət edən, milli maraqları və dövlətçilik mənafeyini hər şeydən üstün tutan ciddi, oxunaqlı KİV-lər hər hansı xarici məkrli maliyyə dairələri ilə əməkdaşlıq eləqələri qurmaz. Bunu xarici anti-Azərbaycan dairələri də yaxşı anlayırlar. Ona görə də, Azərbaycan cəmiyyətində tanınmayan, heç bir dəyəri və ciddi resursu olmayan saytlarla əməkdaşlıq edirlər, onlara milyonlarla dollar yardımlar göstərirlər.

Bütün bu kimi fəaliyyət onu təsdiq edir ki, ABŞ-ın və Avropanın qaranlıq dairələri Azərbaycanda özlərinə yaxın media şəbəkəsi yaradıblar. Agentura şəbəkəsində yalnız jurnalistlər, özlərini bloger kimi təqdim edənlər yer tutmurlar, onların arasında QHT nümayəndələri, siyasi partiya rəhbərləri mövcuddur. Ancaq ortada olan bir reallıq mövcuddur ki, məkrli dairələrin yaratdığı təxribatçı şəbəkə hüququn aliliyinin ən yüksək səviyyədə təmin olunduğu Azərbaycanda qol-qanad aça bilmirlər. Onlar öz təxribatlarının qurbanı olur və həbs edilərək, məhkəmə qarşısına çıxarılırlar.

***İLHAM ƏLİYEV***

# Sosial dövlət yolunda ortaya qoyulmuş siyasi iradə

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*



***Xəbər veridiyimiz kimi, bir neçə gün əvvəl Azərbaycan Prezidenti İlham Əliyev sosial müavinətlərin, Prezident təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin məbləğlərinin artırılması, bununla əlaqədar bəzi fərmanlarında və sərəncamında dəyişiklik edilməsi haqqında fərman imzalayıb. Fərmana əsasən, iyulun 1-dən sosial müavinətlərin məbləğləri aşağıdakı kimi müəyyən edilib:***

- orqanizmin funksiyalarının 81-100 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə 300 manat, orqanizmin funksiyalarının 61-80 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə 250 manat, orqanizmin funksiyalarının 31-60 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə 180 manat;
- ailə başçısını itirməyə görə 140 manat;
- müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına 140 manat;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) 140 manat;
- bir yaşınadək uşağı olan aztəminatlı ailələrə hər uşaq üçün 140 manat;
- beşdən çox uşağı olan qadınlara hər uşaq üçün 140 manat;
- övladlığa götürülən uşağa (18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlar istisna olmaqla) görə 240 manat;
- himayədar ailəyə verilmiş 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə: 0-6 yaş arası uşağa görə 500 manat, 7-13 yaş arası uşağa görə 600 manat, 14-18 yaş arası uşağa görə 650 manat;
- uşağın anadan olmasına görə 600 manat;
- dəfn üçün 600 manat.

Bundan başqa, iyulun 1-dən Prezident təqaüdlərinin aylıq məbləğləri aşağıdakı kimi müəyyən olunub:

- "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə 2 200 manat;
- Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş hər bir şəxs üçün 2 000 manat;
- şəhid ailəsi üçün 700 manat;
- 20 Yanvar şəhidinin ailəsi üçün 700 manat;
- Əfqanıstanda Sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinə 700 manat;
- müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə:

orqanizmin funksiyalarının 81-100 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 600 manat;

orqanizmin funksiyalarının 61-80 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 500 manat;

orqanizmin funksiyalarının 31-60 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 400 manat;

orqanizmin funksiyalarının 81-100 % pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə 120 manat;

ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 % pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) 250 manat;

- ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 % pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə 350 manat.





Eyni zamanda, iyulun 1-dən Prezidentin fərdi təqaüdünün məbləği 1 700 manat, fəxri adlara görə aylıq təqaüdün məbləği xalq yazıçısı, xalq şairi, xalq artisti və xalq rəssamı üçün 300 manat, əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi, əməkdar müəllim, əməkdar həkim, əməkdar memar, əməkdar bədən tərbiyəsi və idman xadimi, əməkdar dövlət qulluqçusu, əməkdar jurnalist, əməkdar mühəndis, əməkdar hüquqşünas, əməkdar kənd təsərrüfatı işçisi, əməkdar pilot, əməkdar tibb işçisi üçün 200 manat müəyyən edilib.

Göründüyü kimi, sosial ödənişlərin artırılması çox geniş kateqoriyaları əhatə edir və milyonlarla insanın gəlirlərinin artmasına səbəb olub. Bu artım, həssas qruplara, müharibə qəhrəmanlarına və əlillərə, himayəyə verilmiş uşaqlara və sair çox sayda kateqoriyadan olan insanlara dövlətin qayğısının əyani təzahürüdür.

Azərbaycan sosial dövlət strategiyası götürüb və dövlətin əsas prioriteti olaraq əhalinin sosial müdafiəsinin artırılması əsas məqsəddir. Məhz bu səbəbdən ölkəmizin dövlət büdcəsindən ayırılmaların təxminən 40 faizini sosial ayırmalar tutur.

Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il üçün gəlirləri və xərcləri bərabər olmaqla 7,7 milyard manat təşkil edir ki, bu da, keçən ilin büdcəsinə nisbətən 727 milyon manat və ya 10,5% çoxdur.

Əmək pensiyalarının orta aylıq məbləğinin ilin sonuna 535 manata çatacağı gözlənilir. Yaşa görə pensiyanın orta aylıq məbləğinin keçən ildəki 527 manatdan 44 manat artaraq 571 manata yüksəldilməsi gözlənilir.

2025-ci ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşınadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə 198,4 milyon manat vəsait nəzərdə tutulub ki, bu da keçən ilə nisbətən 9,3%, yaxud 16,8 milyon manat çoxdur.

Ümumiyyətlə son 5 ildə dövlət büdcəsindən social istiqamətdə ayrılan vəsaitin həcminin mütləq ifadədə 1,6 dəfə artması vacib məqamdır.

2025-ci ildə İşsizlikdən Sığorta Fondunun gəlirləri və xərcləri balanslaşdırılmaqla 260,7 milyon manat nəzərdə tutulmuşdur ki, bu da keçən illə müqayisədə 22,7 milyon manat, yaxud 9,5% çoxdur.

Fondun 2025-ci il üçün proqnozlaşdırılan 260,7 milyon manat məbləğində xərclərinin 77 milyon manatı özünüməşğulluq proqramının təşkilinə, 35 milyon manatı peşə hazırlığı və əlavə təhsilin təşkilinə, 17 milyon manatı işsizliyə görə sığorta ödənişlərinə, 1,5 milyon manatı peşəyönümü məsləhət xidmətlərinin göstərilməsinə, 1 milyon manatı peşə standartlarının hazırlanmasına, 4 milyon manatı sosial iş yerlərində əməkaqqının bir hissəsinin maliyyələşdirilməsinə və 4,5 milyon manatı digər aktiv məşğulluq tədbirlərinə yönəldiləcəkdir.

Əsas aktiv məşğulluq tədbirlərindən olan özünüməşğulluq proqramı davam etdirilir və İşsizlikdən Sığorta Fondunun 2025-ci il büdcəsinin əsas hissəsini, təxminən 30%-ni təşkil edir. Növbəti ildə Nazirlik tərəfindən daha 8 min, Dünya Bankı layihəsi çərçivəsində 1,5 min nəfər olmaqla ümumilikdə 9,5 min ailənin özünüməşğulluğunun təmin edilməsi nəzərdə tutulur. Proqramın əhatə dairəsinin genişləndirilməsi, vətəndaşlara təqdim edilən zərflərdə çeşid müxtəlifliyinin artırılması məqsədilə 2025-ci ildə 7 yeni zərfin pilot olaraq tətbiq edilməsi nəzərdə tutulur. Əlavə olaraq 4 yeni zərfin yaradılması istiqamətində araşdırmalar davam etdirilir və növbəti ildə tətbiq edilməsi planlaşdırılır.

2025-ci ildə işsiz və işaxtaran şəxslərin peşə hazırlığı və əlavə təhsilinin təşkili üzrə işlərə 35 milyon manat vəsaitin yönəldilməsi nəzərdə tutulur.

Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər üçün əlavə iş yerlərinin, sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi və digər aktiv məşğulluq tədbirlərinin icrası üçün 2025-ci ildə 3 milyon manat xərclənməsi nəzərdə tutulur.

Ümumiyyətlə, 2025-ci ilin dövlət büdcəsinin 41 faizinin sosial istiqamətdə olması, əhalinin sosial müdafiəsinin 1 nömrəli prioritet olduğunu aydın göstərir. Düzdür, bütün dünyada olduğu kimi, Azərbaycanda da inflyasiya davam edir və bu əhalinin gəlirlərinin dəyərini azaldır, lakin dövlət mütamadi artımlarla bunu kompensasiya edir.

Sosial ödənişlərin artırılmasından əvvəl maaş və pensiyalarda da artımlar edilmişdir. Güman ki, il ərzində yenə də artımlar olacaq. Baxmayaraq ki, dünya bazarında neftin qiyməti əvvəlki illərə nisbətən əhəmiyyətlə dərəcədə ucuzlaşıb və bu da gəlirlərimizə təsir edir, dövlət sosial ayırmalara yönələn vəsaiti artırmaqda davam edir.

Ümumilikdə bizdə inflyasiya tempi digər ölkələrdən xeyli aşağıdır. Dövlət inflyasiya səviyyəsini minimumda saxlamağa çalışır ki, əhalinin sosial vəziyyəti pisləşməsin.

Bundan əlavə sosial artımlardakı ir sita istiqamətlər strateji məqsədləri güdür, məsələn 1 yaşınadək uşağı olan aztəminatlı ailələrə ödənilən, 5-dən çox uşağı olan ailələrə verilən, himayəyə götürülən uşaqlara görə ayrılan, o cümlədən uşaq doğumuna görə ödənilən vəsaitin artırılması dövlətimizin əhalinin artımını stimullaşdırmaq və mövcd uşaqların sağlam böyüdülməsinə qayğısı kimi dəyərləndirmək olar.

Əlbəttə, mövcud ödənişlərin həcmi yüksək deyil, lakin hər şey maddi imkanlara bağlıdır, dövlətin maddi imkanları artdıqca bu kimi ödənişlərin də artması paralel olaraq gedir.

Əsas olan siyasi iradədir və Azərbaycan dövlətinin başçısı Prezident İlham Əliyev əhalinin sosial rifahının artırılması, vətəndaşların sağlam şəraitdə yaşaması üçün dövlətin bütün imkanlarını səfərbər etmək siyasəti yürüdür.

Hazırda dövlətimiz işğaldan azad edilmiş çox böyük ərzilərdə dağıdılmış şəhər və kəndlərin bərpası üçün çox nəhəng vəsaitlər xərcləməyə məcbur olur. Artıq çox böyük işlər həyata keçirilib. Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması işləri başa çatdıqdan sonra bu istqamətdə xərclər kəskin azalacaq və bu vəsaitlərin də sosial ayırmalara yönəldilməsi mümkün olacaq.

Bir sözlə dünyada davam edən siyasi, iqtisadi və sosial öhranlara baxmayaraq Azərbaycanda həm iqtisadi, həm sosial sahədə inkişaf davam edir və bu cəhətdən xalqımızı heç bir təhlükə gözləmir. Çünki Azərbaycan adlı gəminin sükanı etibarlı əllərdədir.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
18 iyun
2025-ci il

# Biruşaqlı ailə modeli ölkəmizdə niyə geniş yayılıb?





**"Son 40 il ərzində dünyanın müxtəlif bölgələrində istər xristian, istər müsəlman, istərsə də digər dinlərə mənsub ölkələrdə - ailələr çoxuşaqlı olurdu. Xüsusilə sosialist idarəetmə sisteminə malik bir neçə böyük ölkədə vətəndaşların sosial vəziyyəti çox fərqlənmirdi. Gəlirlər və yaşam səviyyəsi əsasən bərabər idi. Bu quruluşda ailələr çoxuşaqlı olur, övladlar təhsil alır və müəyyən peşələrə sahib olurdular". Bu sözləri SİA-ya açıqlamasında sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib.**

Ramal Əliyev sözlərinə belə davam edib: "Kapitalist quruluşda vəziyyət bir qədər fərqlidir. Bu sistemdə əsas prinsip bazar iqtisadiyyatıdır - yəni, "bacarırsan, daha çox qazan" prinsipi işləyir. Burada çox işləmək daha çox gəlir əldə etmək imkanı verir. Maddi vəziyyət kəskin fərqlənir, ciddi təbəqələşmə mövcuddur. Təhsil, yaxşı mənzil və digər sosial imkanlar maddi vəziyyətdən asılıdır. Maddi vəziyyəti zəif olan ailələr övladlarına yaxşı təhsil verə bilməmək və onların maddi ehtiyaclarını qarşılayamamaq qorxusundan daha çox zaman iki övladla kifayətlənirlər. Maddi imkanları yaxşı olanlar isə ailəyə vaxt ayıra bilmədikləri üçün iki, ən çoxu üç övlada sahib olurlar. Nəticədə, bu mənfi tendensiya demoqrafik problemlərə yol açır.

Bundan əlavə, Avropadan gələn ailə modeli nümunəsi də bu vəziyyətə təsir edir. Son 30 ildə Avropada bir uşaqlı ailələrin sayı artıb. Hətta bəzi cütlüklər bir uşağa belə ayırdıqları vaxtı itki hesab edir, ona görə də daha çox it saxlayırlar, çünki itlərin təhsili və digər xərcləri yoxdur.

Təəssüf ki, cəmiyyətimizdə də iki uşaqlı ailələr üstünlük təşkil edir. Bunun əsas səbəblərindən biri insanların maddi rifahının aşağı olmasıdır. İnsanlar övladlarına kifayət qədər maddi imkanlar təmin edə bilməmək, onlara yaxşı təhsil verə bilməmək qorxusundan ailə sayını məhdudlaşdırırlar.

Bu vəziyyət dövlətlərin daxili siyasətinə də uyğun deyil. Buna görə də, bir çox ölkələr problemi həll etmək məqsədilə uşaq pulu və çoxuşaqlı ailələrə yardımlar təyin ediblər. Məsələn, Rusiyada bu problemin aradan qaldırılması üçün büdcədən ciddi vəsait ayrılır.

Az uşaqlı ailələr problemi artıq ciddi sosial və iqtisadi məsələdir. Onun qarşısını almaq üçün dövlətlər uşaq pulu, çoxuşaqlı ailələrə müxtəlif müavinətlər verməlidirlər. Əks halda, əhali sayı azalacaq və demoqrafik vəziyyət yaxın 40 ildə ağırlaşacaq. Biz İnanclı ailələrə nəzər saldıqda, onların 4-5 övladlarının olduğunu görürük. Burada iman əsas rol oynayır. Belə ailələr Peyğəmbərin "Evlənin, çoxalın" hədisinə söykənirlər. Onlar ruzi verənin Allah olduğuna inanır və övlad sayının çoxluğundan çəkinmirlər. İnanclı ailələr arasında abortun haram olması da çoxuşaqlı ailələrin sayının çox olmasının səbəblərindəndir".

*Ayşən Vəli*

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## İtaliyada məktəblilərin mobil telefonlardan istifadəsi qadağan edildi!



***İtaliyada ümumtəhsil məktəblərində orta sinif şagirdlərinin mobil telefonlardan istifadə etməsi qadağan olunub. Bu barədə İtaliyanın təhsil naziri Cüzeppe Valditara qərar imzalayıb.***

Qərara əsasən, yeni tədris ilindən başlayaraq ümumtəhsil məktəblərində orta sinif şagirdlərinin dərs zamanı və ümumilikdə məktəb vaxtı mobil telefondan istifadəsi qadağan edilib. Yalnız müstəsna hallarda əlilliyi və ya xüsusi öyrənmə çətinliyi olan şagirdlərin mobil telefondan istifadə etməsinə icazə veriləcək.

## Ərəblər bu futbolçuya illik 50 milyon avro maaş təklif edirlər!



***Səudiyyə Ərəbistanının "Əl-Hilal" klubu Nigeriya millisinin futbolçusu Viktor Osimhen üçün ödəmək istədiyi məbləğ bəlli olub. Belə ki, ərəblər İtaliyanın "Napoli" komandasının 26 yaşlı hücumçusuna illik 50 milyon avro maaş təklif etməyə hazırlaşır. Bundan əvvəl Osimhen "Əl-Hilal"ın üç təklifini rədd edib.***

Qeyd edək ki, Viktor Osimhen geridə qalan mövsümdə icarə əsasında Türkiyənin "Qalatasaray" klubunda çıxış edib. O, 41 oyunda iştirak edərək 37 qol vurub və 8 qolun ötürməsini edib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**